www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 iyul 2024-cü il Çərşənbə axşamı № 112 (8485) Qiymәti 60 qəpik

**Xəbər**

## Artan qətllər, intihar və kriminallar - səbəb...

yazısı səh.14-də

**Gündəm**

### Tarif Şurasının yeni qərarlarını şərtləndirən amillər-ekspertlər nə deyir



Qiymətlərin tənzimlənməsinin iqtisadiyyata təsirləri; ekoloji təmiz avtomobillərə maraq artacaqmı...

yazısı səh.6-da

### O'Brayenin Bakıda vətəndaş cəmiyyəti ilə görüşü - Qərbin qərəzi bitmir

yazısı səh.7-də

### Delimitasiya prosesi ilə bağlı yeni durum açıqlandı

yazısı səh.3-də

### İranın yeni prezidentindən gözləntilər - mövqe

yazısı səh.4-də

### Bitməyən Qəzza və Ukrayna savaşı - Tramp seçilsə, müharibə dayanacaq, yoxsa...

yazısı səh.12-də

### MMC-lərin, yoxsa mülkiyyətin toxunulmazlığı

yazısı səh.10-da

### Tikinti maqnatının şirkəti Bakıda yaşıllığı məhv etdi, cinayət işi başlandı

yazısı səh.2-də

### Leysan olacaq, dolu düşəcək, çaylardan sel keçəcək

yazısı səh.15-də

### Yeni taksi qaydaları - qiymətlər artdı və ...

yazısı səh.13-də

### Avro-2024-ün həyəcanlı anı - Türkiyənin tamam, ya da davam savaşı

yazısı səh.15-də

# PREZİDENT ƏSAS ŞƏRTİ AÇIQLADI - ERMƏNİSTAN KONSTİTUSİYASINI DƏYİŞMƏSƏ...

Dövlət başçısı Kanada səfiri ilə söhbətdə mühüm mesajlar verdi, prosesə müdaxilə olmadığını dedi; İrəvan ana qanununu dəyişməyənə qədər sülh sazişinin imzalanmayacağını bəyan etdi



yazısı səh.3-də

# Partiyalar deputatlığa namizədlərini müəyyənləşdirir

YAP siyahını bir neçə günə elan edəcək; hakim partiya bəzi dairələrdə müstəqil namizədləri dəstəkləyəcək

yazısı səh.5-də



*Psixoloq Rövşən Nəcəfov:*

### "İmtahandan əvvəl və ya sonra abituriyentlərə qınaq və qərəz ifadə etmək olmaz"

yazısı səh.11-də



### Fransada seçkilərin ilginc nəticələri - Makronun iflası...

yazısı səh.8-də



### Ərdoğanın Şuşa səfərindən mühüm gözləntilər - Türk Zirvəsində nələr olacaq?

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 112 (8485) 2 iyul 2024




## “Russneft” Azərbaycandakı aktivlərindən imtina etdi

**Rusiyanın “Russneft” şirkəti Azərbaycandakı aktivlərə nəzarət edən şirkətləri öz strukturundan çıxarıb.**

Musavat.com “İnterfaks”a istinadən xəbər verir ki, bu, şirkətin rəsmi reyestr məlumatlarında əksini tapıb.

Sənədə əsasən, “Russneft”lə SOCAR-ın bir sıra HPBS layihələrində iştirak edən Britaniya-Virciniya şirkəti olan GEA Holdings Ltd. Rusiya şirkətinin törəmələri siyahısından çıxarılıb. GEA vasitəsilə “Russneft” Abşeron, Binəqədi, Neftçala və Şirvan yataqlarının işlənməsində iştirak edirdi.

“Russneft” strukturundan həmçinin Kayman adalarından 4 şirkət çıxarılıb: “Kura Valley Holdings Ltd.” və 2000-ci illərin sonunda Azərbaycanın Padar-Haramı (“Russneft” 2019-cu ildə Padar blokunu tərk edib) və Mişovdağ-Kələməddin bloklarının operatorları kimi adı çəkilən Karasu Əməliyyat Şirkəti, həmçinin “Karasu Petroleum Company”, “Karasu Development Company”.

Beləliklə, “Russneft”in xarici istehsal aktivləri qalmayıb. Şirkətin Azərbaycandakı hasilat həcmi son illər hesabatlarda açıqlanmasa da, 2019-cu ildə “Russneft” 500 min tona yaxın neft hasil etmək niyyətini açıqlayıb.

❑ Musavat.com




## Təhsil idarəsinin müdiri işdən çıxarıldı - qanun pozuntusu

**Elm və Təhsil Nazirliyi ilə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi tabe qurumlarda növbəti dövri yoxlama tədbirləri çərçivəsində Dağlıq Şirvan Regional Təhsil İdarəsində (RTİ) yoxlamalar aparıb.**

Agentlikdən APA-ya verilən xəbərə görə, yoxlamalar yerli bölmələr tərəfindən təhsilin dövlət standartlarına uyğun təşkilinə nəzarətin həyata keçirilməsi, direktor və direktor müavinlərinin işə qəbulu prosesinin mövcud qaydalara uyğun təşkili, kadrların təyinatı və yerləşdirilməsi, eyni zamanda qayda və təlimatların icra vəziyyətinin yoxlanılması məqsədilə həyata keçirilib.

Aparılan yoxlamalar zamanı sözügedən idarənin fəaliyyətində müsabiqə qaydaları və şərtlərinin, təlimati sənədlərin tələblərinin ciddi şəkildə pozulması halları aşkarlanıb. Bununla yanaşı, RTİ-nin tabeliyində fəaliyyət göstərən müəssisələrə nəzarətin təşkilində nöqsanlar aşkar edilib.

Araşdırmanın nəticəsinə əsasən, Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri Rövşən Əliyev elm və təhsil nazirinin müvafiq əmri ilə iyulun 1-dən tutduğu vəzifədən azad edilib.

Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdir vəzifəsinin icrası müvəqqəti olaraq idarənin müdir müavini Həmid Qasımova həvalə edilib.

Agentlik tərəfindən yerli bölmə və tabe müəssisələrin fəaliyyətinə nəzarətin təşkili məqsədilə aparılan yoxlamalar il ərzində davam etdiriləcək.

# Tikinti maqnatının şirkəti Bakıda yaşıllığı məhv etdi, cinayət işi başlandı



Ərazinin 2021-ci ildə çəkilmiş fotosu



Ərazinin 2023-cü ildə çəkilmiş fotosu

**Ekoloji hüquqpozmalara qarşı mübarizə davam etdirilir. Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, cari ilin iyun ayında paytaxtın Nəsimi rayonunun M.Mirqasımov, X.Şuşinski, İ.Qasımov və M.Topçubaşov küçələrinin kəsişməsində yaşıllıqların məhv edilməsinə dair vətəndaşların müraciəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyindən daxil olmuş materiallar və mediada yayılan məlumatlar əsasında araşdırma aparılıb.**

Araşdırmalarla göstərilən ərazidə ümumilikdə 198 ədəd ağac və kolun qanunsuz kəsilməsi nəticəsində təbiətə 413 min manatdan artıq ziyan vurulması müəyyən edildiyindən fakta görə Baş Prokurorluqda Cinayət Məcəlləsinin 259.2.4 (külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) və 308.1-ci (vəzifə səlahiyyətlərin sui-istifadə) maddələrilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Həmçinin həmin ərazidə 2023-cü ilin avqust-dekabr ayları ərzində baş verən bir neçə qanunsuz ağackəsmə faktları üzrə mediada yayılan məlumatlar əsasında Baş Prokurorluqda araşdırma aparılıb və Cinayət Məcəlləsinin 259.2.3 və 259.2.4-cü maddələri (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) ilə cinayət işi başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə daxil işlər orqanlarına göndərilib.

Qeyd olunur ki, 2023-cü ilin avqust-dekabr ayları ərzində baş verən bir neçə qanunsuz ağackəsmə faktları nəticəsində təbiətə dəymiş 371 min manatdan artıq ziyanın Baş Prokurorluq tərəfindən dövlət büdcəsinə ödətdirilməsi təmin edilib.

Hazırda qeyd olunan cinayət işləri üzrə ibtidai istintaq davam etdirilməklə, qanun pozuntularına yol vermiş şəxslərin tam dairəsinin müəyyən ediləcək məsuliyyətə cəlb olunması təmin ediləcək.

Musavat.com diqqətə çatdırır ki, qeyd olunan ərazidə söküntü-tikinti işlərini “İnvest M. Construction” MMC aparır və yaşıllıq da bu şirkət tərəfindən məhv edilib. Habelə həmin ərazidə vətəndaşların mülkiyyətini zorla əlindən alır və zorakı üsullarla dağıdıblar. Bununla bağlı mətbuatda dəfələrlə məqalələr yazılıb.

MMC-nin faktiki sahibi isə sabiq deputat Əsabil Qasımovdur.

## Dağıstanda niqab qadağan olunacaq



**Dağıstanda niqab qadağan olunacaq.**

APA-nın Rusiya bürosu xəbər ki, bu barədə Dağıstanın müftisi Əhməd Abdullayev bildirib.

O, niqabın qadağan edilməsinə fətva verəcəyini vurğulayıb.

“Əgər istəyirsiniz ki, arvadınızı görməsinlər, onu evdə saxlayın”, - Dağıstan müftisi qeyd edib.



## MİQ imtahanları başlayır

**Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsinə start verilir.**

Təhsil İnstitutundan Musavat.com-a verilən xəbərə görə, 2 iyul tarixindən etibarən müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsinə start verilir.

Namizədlər şəxsi səhifələrinə daxil olaraq imtahanların keçiriləcəyi tarix və məkanla tanış ola bilərlər.

Qeyd edək ki, müsabiqənin test imtahanı mərhələsinə ümumilikdə 61 000-ə yaxın namizəd dəvət olunub.



## BMT Təhlükəsizlik Şurasına sədrlik Rusiyaya keçib

**Rusiya xarici işlər naziri Sergey Lavrov iyulun 16-da və 17-də Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının debatlarına sədrlik edəcək.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, iyulun 1-dən BMT Nizamnaməsinə uyğun olaraq beynəlxalq sülh və təhlükəsizliyə qarşı təhdidlərə effektiv cavab tapmaq üçün əsas məsuliyyət daşıyan BMT Təhlükəsizlik Şurasına sədrlik Rusiyaya keçib. Rusiyanın sədrliyi dövründə üç mərkəzi tədbirin keçirilməsi planlaşdırılır.

YENİ MÜSAVAT
N 112 (8485) 2 iyul 2024



# Prezident əsas şərti açıqladı - Ermənistan konstitusiyasını dəyişməsə...

## Dövlət başçısı Kanada səfiri ilə söhbətdə mühüm mesajlar verdi, prosesə müdaxilə olmadığını dedi; İrəvan ana qanununu dəyişməyənə qədər sülh sazişinin imzalanmayacağını bəyan etdi

**Prezident İlham Əliyev iyulun 1-də Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edərkən sülh prosesi, delimitasiya və digər məsələlərlə bağlı mühüm açıqlamalar verib.**

AZƏRTAC-ın məlumatında deyilir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət edib.

"Kevin Hamilton Azərbaycanın çox gözəl, dinamik inkişaf edən və mühüm ölkə olduğunu vurğuladı. Azərbaycanla Ermənistan arasında əhatəli sülh müqaviləsi imzalanarsa, regionda əməkdaşlıq üçün yeni imkanların yarana biləcəyinə ümidvarlığını bildirən səfir dedi ki, biz regionda daha yaxşı münasibətlərin qurulmasını arzulayırıq ki, bunun nəticəsində bizim həm Azərbaycan, həm də Ermənistan ilə əlaqələrimiz inkişaf etsin". Səfir Kanadanın həmişə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirərək, ədalətli, əhatəli və daimi sülh müqaviləsi üzərində fəal iş aparıldığından məlumatlı olduğunu bildirib.

**Xəbərdə daha sonra qeyd olunur:** "Dövlətimizin başçısı torpaqlarımızın işğalı dövründə orada etnik təmizləmə və soyqırımının törədildiyini, ərazilərimizin kütləvi şəkildə dağıdıldığını qeyd etdi. Prezident İlham Əliyev həmin dövrdə münaqişənin həlli ilə bağlı çox böyük səylər göstərildiyini, lakin bu səylərin uğursuz olduğunu bildirdi. Belə ki, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü münaqişənin həllinə nail ola bilmədi, daha doğrusu, olmaq istəmədi. Onların hamısı Ermənistanın həyata keçirdiyi işğalın müxtəlif səbəblər üzündən həmişəlik olmasını istəyirdi. Dövlətimizin başçısı bu qənaətə prezidentlik fəaliyyətində öz şəxsi təcrübəsi əsasında gəldiyini dedi. Prezident İlham Əliyev 2003-cü ilin sonundan başlayaraq keçmiş Minsk Qrupu üçlüyü və Ermənistan tərəfi ilə dəfələrlə görüşdüyünü xatırladı və bütün bunların heç bir nəticə vermədiyini dedi. Dövlətimizin başçısı bildirdi ki, keçmiş Minsk Qrupunun üzvləri və Ermənistan tərəfi bunu istəmirdi. Ermənistan tərəfi torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi".

**Dövlətimizin başçısı bildirib ki, hazırda biz ikitərəfli səviyyədə daha yaxşı nəticələr görürük:** "Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik. Azərbaycan Prezidenti qeyd etdi ki, düzdür, hələ sülh müqaviləsi imzalanmayıb, lakin artıq sərhədlərin delimitasiyasına nail olunub".

Prezident İlham Əliyev vurğulayıb ki, COP29 məsələsində Ermənistan bizim bu tədbirə ev sahibliyi etməklə bağlı məhdudiyyətini aradan qaldırdı, biz isə onların COP-un idarəedici orqanlarında iştirakına qarşı çıxmadıq. Dövlətimizin başçısı qeyd etdi ki, açığı, o, belə hesab etmir ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bizim hansısa bir ölkə ilə ikitərəfli münasibətlərimiz üçün mühüm rol oynaya bilər.

Qlobal səviyyədə diplomatik fəaliyyətimizi şaxələndirdiyimizi deyən dövlətimizin başçısı Azərbaycanla Avropa İttifaqının 10 ölkəsi arasında strateji tərəfdaşlıq haqqında bəyannamənin olduğunu qeyd etdi və vurğuladı ki, bu sənədlərin çoxu torpaqlarımızın işğalı zamanı Azərbaycanla Ermənistan arasında heç bir sülh müqaviləsi olmadığı bir dövrdə imzalanıb. Bu baxımdan Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin olmaması hər hansı bir ölkənin regionda fəaliyyətinin səviyyəsinin müəyyənləşdirilməsi üçün bir amil ola bilməz.

**Dövlətimizin başçısı bir məqamı da vurğulayıb ki, Ermənistan 28 illik bir dövrdə beynəlxalq hüququn fundamental prinsipləri ilə razılaşmaq istəmədi:** "Onlar bütün humanitar qanunları pozdular, BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamələrinə məhəl qoymadılar. Heç kim onlara zərrə qədər də irad tutmurdu. Münaqişə barədə danışan bir çox ölkələr Azərbaycanın ərazi bütövlüyünə sadiqlik bəyan etmirdilər".

**Prezident İlham Əliyev vurğulayıb ki, indi biz Ermənistanın işğalçı ordusuna döyüş meydanında qalib gəldikdən və onları torpaqlarımızdan qovduqdan sonra bizim ərazi bütövlüyümüzə dəstəklə bağlı bəyanatlar eşidirik. Amma biz bunu artıq özümüz təmin etmişik:** "Kiminsə bizim ərazi bütövlüyümüzü tanıyıb-tanımaması mahiyyət kəsb etmir. Azərbaycan Prezidenti qeyd etdi ki, bu, torpaqlarımız işğal altında olan bir dövrdə önəmli idi. Bəli, bir sıra Qərb ölkələrində ermənipərəst sentimentlərin mövcudluğu, erməni diasporunun rol oynaması məlumdur. Amma beynəlxalq hüquqa gəldikdə bu emosiyalar kənara qoyulmalıdır. Lakin bunu anlamaq önəmlidir ki, 28 illik bir dövrdə razılaşdırıla bilməyən məsələlərin 1-2 ilə həll edilməsi çətindir. Həm də Azərbaycanla Ermənistan arasında substantiv danışıqlara demək olar ki, dekabr ayında başlanılıb. Çünki ondan əvvəl Ermənistan sülh müqaviləsinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini salmaq istəyirdi və bu, qəbuledilməz idi".

**Prezident İlham Əliyev diqqətə çatdırıb ki, çünki bu, bizim daxili məsələmizdir:** "Beləliklə, separatçı rejim ləğv edildikdən sonra dekabr ayından başlayaraq danışıqlar cəmi 6 aydır gedir. Buna zaman lazımdır və əlbəttə, sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq. Bu, məlum məsələdir".

**Azərbaycan Prezidenti qeyd edib ki, bununla yanaşı, hesab edir ki, danışıqlar prosesi çərçivəsində kifayət qədər sürətli irəliləyirik. Dövlətimizin başçısı deyib:** "Zənnimcə, sülh müqaviləsinin mətni, ən azı əsas prinsipləri üzərində işi bir neçə aya yekunlaşdıra bilərik. Bildirim ki, işğal dövründə vasitəçilərin planı Madrid prinsipləri adlandırılan əsas prinsiplərlə bağlı razılığa gəlməkdən ibarət idi. Onlar paraflanmalı və daha sonra isə mətn tərtib edilməli idi. Hesab edirik ki, bu, bir variant ola bilər - əsas prinsiplərlə bağlı razılıq əldə edilsin, onlar paraflansın və daha sonra mətn üzərində iş getsin".

Prezident İlham Əliyev söyləyib ki, bu, onların konstitusiyaya dəyişiklik edəcəkləri təqdirdə baş tutacaq.

Qayıdış hüququ ilə əlaqədar səfirin şərhinə cavabında Azərbaycan Prezidenti bildirib ki, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir. Bu xüsusda dövlətimizin başçısı keçən yüzillikdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə köklü Azərbaycan əhalisinin indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qaldığını və onlara aid maddi-mədəni irsin tamamilə dağıdıldığını qeyd edib.

Səfir dövlətimizin başçısına hörmətini ifadə edərək, məlumatlara görə minnətdarlığını bildirib.

Beləliklə, Azərbaycan Prezidenti sülhlə bağlı nikbinliyini, Azərbaycanın mövqeyinin dəyişməz olduğunu, regionda əmin-amanlıq üçün bütün səyləri göstərdiyini bəyan etməklə yanaşı, Ermənistanın öz növbəsində rəsmi torpaq iddialarına son qoyulmadan sülhün mümkünsüzlüyünə bütün dünyanın diqqətini çəkmiş olub.

❑ Analitik şöbə

# Prezidentin yüksək vəzifə verdiyi Bəşir Hacıyev kimdir? - dosye

**Prezident İlham Əliyevin sərəncamı ilə Bəşir Qüdrət oğlu Hacıyev Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.**

Musavat.com Bəşir Hacıyevin dosyesini təqdim edir:

Bəşir Hacıyev 1979-cu ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə Azərbaycan Dillər Universitetinin Filologiya fakültəsinin bakalavr, 2004-cü ildə həmin universitetin Dilşünaslıq fakültəsinin magistr pillələrini bitirib, 2007-ci ildə isə Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə-kredit fakültəsindən məzun olub. O, 2021-ci ilədək özəl sektorda, əsasən turizm sahəsində fəaliyyət göstərib, uzun müddət Azərbaycan Turizm Assosiasiyasının İdarə Heyətinin üzvü olub.




2021-ci ildə Ağdam rayonunun işğaldan azad edilmiş hissəsi üzrə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyində fəaliyyətə başlayıb, bu ilin əvvəlindən isə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin baş məsləhətçisi olub.

Verilən məlumatlara görə, Bəşir Hacıyev Azərbaycanda mehmanxana idarəetməsi sahəsində ilk menecerdir. O, "İçəri Şəhər" adlı butik hoteldə iş fəaliyyətinə başlayıb və on ildən çox müddət ərzində mehmanxana idarəetməsində çalışıb. Karyerası ərzində Bəşir Hacıyev "İçəri Şəhər", "Hale Kai Hotel", "Balion Hotel", "Çiraq Plaza Hotel", "Sea Breeze Resort", "Caspian Sea Resort" kimi hotelləri idarə edib.

2010-cu ildə Azərbaycan Turizm Assosiasiyasi İdarə Heyətinin üzvü, daha sonra ASK-nın tərkibində fəaliyyət göstərən "Turizm" komissiyasının sədr müavini seçilib.

Bəşir Hacıyev eyni zamanda "Balion Group" şirkətinin təsisçisidir. Hazırda həmin şirkətə Bəşir Hacıyevin qardaşı Vüqar Hacıyev rəhbərlik edir. Onu da bildirək ki, Vüqar Hacıyev tanınmış teleaparıcı, Hacı Nuran kimi tanınan Nuran Hüseynovun köməkçisi olub.




# Delimitasiya prosesi ilə bağlı yeni durum açıqlandı

**Müvafiq razılaşmalara əsasən, komissiyalar "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası məsələləri və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın birgə fəaliyyəti haqqında" Əsasnamə layihəsinin razılaşdırılması üzərində işləyirlər.**

Musavat.com xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin xidməti məlumat yayıb.

Bildirilib ki, 2024-cü il iyulun 1-nə olan vəziyyətə görə, komissiyalar işçi qaydada Əsasnamənin layihələrinin mübadiləsini həyata keçirib və bir sıra müzakirələr aparıblar.

"Danışıqlar konstruktiv məcrada davam edir. Razılaşdırma prosesinin tezliklə başa çatdırılması planlaşdırılır", - qeyd olunub.

# İranın yeni prezidentindən gözləntilər - mövqe

## Kənan Rövşənoğlu: “Güman etmirəm ki, Cəlili seçilsə, Azərbaycanla ciddi problemi olacaq”

**İranda seçki həyəcanı davam edir. Prezident iyulun 5-də keçiriləcək ikinci turda bəlli olacaq. Birinci turda ən çox səsi Məsud Pezeşkian toplayıb. Onun rəqibi Səid Cəlilidir. Hələlik görünən budur ki, Pezeşkian İranın növbəti prezidenti olacaq. Ancaq bir sıra təhlilçilər iyulun 5-də keçiriləcək prezident seçkisinin ikinci turunda sürpriz nəticə ola biləcəyini də istisna etmirlər.**

İran prezidentliyinə namizədlər Məsud Pezeşkian və Səid Cəlili iyulun 5-də keçiriləcək səsvermənin ikinci turundan əvvəl bazar ertəsi və çərşənbə axşamı iki teledebatda iştirak edəcəklər.

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə İranın milli televiziyası məlumat yayıb.

Verilən informasiyaya görə, ilk debat bazar ertəsi saat 21:30-da, ikinci debat isə çərşənbə axşamı saat 21:30-da baş tutacaq. Bundan əlavə, İran prezidentliyinə iddialı iki namizəd haqqında sənədli filmlər nümayiş etdiriləcək, onların seçki kampaniyaları çərçivəsində xalq qarşısında çıxışları da olacaq.

Bu iki namizəddən hansı Azərbaycan üçün daha arzuolunandır? Yoxsa heç bir fərqi yoxdur? Məsələ ondadır ki, Ermənistan Pezeşkianın yox, Səid Cəlilinin seçilməsini arzulayır. Ermənilərin bunda marağı nədir?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov cənub qonşumuzdakı bu seçkilərin demokratik keçirildiyinə inanmır:** “Biz bu mövzuda son günlər bir neçə dəfə fikirlər səsləndirmişik. İranda kimin prezident seçilməsi İran hakimiyyətinin mahiyyətində ciddi bir dəyişikliyə səbəb ola bilməz. Prezident İran dövlətinin əsas siyasi fiquru hesab edilsə də, faktiki olaraq bu dövlət onun Ali Rəhbəri tərəfindən idarə olunur və dövlətin idarəçilik strategiyasını bütövlükdə o müəyyən edir. Seçkilərə gəlincə isə onun demokratik keçirilməsi ilə bağlı yaradılan abı-hava da heç inandırıcı görünmür. Əgər namizədliyini irəli sürmüş adamlar bir neçə dəfə Ali rəhbərin süzgəcindən keçdikdən sonra onun seçkilərdə iştirakına razılıq verilirsə, burada hansı demokratik seçkilərdən söhbət gedə bilər?

Cəlilinin ermənilər tərəfindən dəstəklənməsi bu adamın siyasətçi kimi mahiyyətini ortaya qoyur. Təbii ki, Səid Cəlilinin baxışları Ali rəhbərin tələblərinə uyğun olmasaydı, onun seçkidə iştirakı da mümkün olmazdı. Bir sözlə, İranda prezident seçkisinin nəyisə dəyişəcəyinə ümid etmək mənasızdır. Nə qədər ki, mövcud idarəçilik rejimi hakimiyyətdədir, bu hakimiyyətin mahiyyətinin dəyişməsi mümkün deyil”.

**Sabiq deputat, siyasi təhlilçi Sona Əliyeva ermənilərin Səid Cəlilinin prezident seçilməsini arzuladıqlarını söylədi:** “İranda kimin prezident seçilməsinin Azərbaycan üçün elə bir önəmi yoxdur. Tehran hökuməti Azərbaycanla qarşılıqlı əlaqələrin daha da inkişafında maraqlı olmalıdır. İndiki və bundan sonrakı proseslərdə bu, İran üçün vacibdir. Azərbaycan Respublikası bütün qonşuları ilə sülh şəraitində yaşamaq istəyir. İranda seçiləcək istənilən prezident mövcud mollakratiyanın sifarişlərini yerinə yetirəcək. Yenə də əsas söz sahibi Əli Xameneyi olacaq. Ermənistanda hakim dairələrin Səid Cəlilinin prezident seçilməsini istəyənlər bir neçə səbəbə görə onun yeni ölkə başçısı olmasını arzulayır. Birincisi, Səid Cəlili Ermənistanın dar günlərdə hamisi sayılan Əli Xameneyinin adamıdır. Onun ən yaxın silahdaşlarındandır. Məhz buna görə də onun prezident seçiləcəyi daha inandırıcı görünür. İkincisi, Səid Cəlili qatı fars milliyyətçisi və türk birliyinin qatı əleyhdarıdır. İrəvanda düşünürlər ki, Cəlili hakimiyyətə gəlsə, Zəngəzur dəhlizinin açılmasına maneələr yarada biləcək. Üçüncüsü, Səid Cəlili İranın Qərblə nüvə danışıqlarında əsas fiqurlardan sayılır. Uzun illər Qərblə nüvə danışıqlarını İran tərəfdən məhz Səid Cəlili aparıb. Qərbin də istəyi İranda məhz Cəlilinin hakimiyyətə gəlməsidir. Ermənistanın hazırkı rəhbəri də "Qərb uşağı"dır. Bu səbəbdən, Paşinyan və onun komandası Cəlilinin prezident seçilməsini arzulayır. Maraqlı məqam ondan ibarətdir ki, İranda “yaşayan şəhid” ünvanını alan Cəlili Azərbaycandan daha çox ermənipərəst mövqeyi ilə seçilib. Zəngəzur dəhlizi məsələsində bir neçə dəfə ermənilərin müdafiə edib. Hətta Qafanda İran konsulluğunun açılması ideyasını da məhz Cəlilinin verdiyi iddia olunur. Görünür, erməni lobbisi Cəlili kimi atom diplomatlarını da öz qarmağına keçirə bilib”.

**Tanınmış siyasət yazarı Kənan Rövşənoğlu Səid Cəlili prezident seçilsə belə, Azərbaycanla münasibətlərin gərginləşəcəyini düşünmür:** “Seçkilərdə Pezeşkiyanın seçilməsi ehtimalı hələ də qalır. Düzdür, ikinci turda mühafizəkarlar artıq bir namizədlə iştirak edəcək, amma əgər islahatçılar daha çox insanı seçkiyə cəlb edə bilsə, o zaman Pezeşkianın qalib gəlmək şansı artacaq. Bu səbəbdən də hazırda indidən nəsə demək çətindir. Azərbaycana gəlincə, aydın məsələdir ki, İranda prezident dövlətin birinci şəxsi deyil, dövlətin siyasi kursunu prezident müəyyən etmir. Ancaq əlbəttə, prezidentin kimliyinin xarici siyasətə ciddi təsiri var. Pezeşkian azərbaycanlıdır, Azərbaycanla münasibətlərin yaxşı səviyyədə olmasına çalışacaq, amma yenə deyirəm, bu, ümumi siyasi kursdan asılı olacaq. Ancaq mən güman etmirəm ki, Cəlili də seçilsə, Azərbaycanla ciddi problemi olacaq. Hazırda münasibətlər yaxşıdır, bu kurs davam edəcək. İran-Ermənistan münasibətləri daha çox Ermənistanın siyasətindən asılıdır. Ermənistanın Qərblə yaxınlaşması Tehran-İrəvan münasibətlərinə mənfi təsir edir və etməkdə davam edəcək deyə düşünürəm”.

“İranda baş verən siyasi proseslər şübhəsiz ki, Azərbaycan ictimaiyyətinin diqqət mərkəzindədir”.

Bunu Bakupost.az-a açıqlamasında **deputat Hikmət Babaoğlu** deyib.





Onun sözlərinə görə, İranda keçirilən prezident seçkisində Məsud Pezeşkian qalib gələrsə, bu, ölkə tarixində ilk azərbaycanlının prezident seçilməsi hadisəsi olacaq: “Bu da əlbəttə ki, İranda yaşayan azərbaycanlıların iradəsi nəticəsində mümkündür. Amma biz bilirik ki, İranın siyasi sistemi vahiddir, oradakı daxili siyasi proseslərə İran vətəndaşları fərqli prizmadan baxırlar. Yəni bizim baxdığımız milli baxışlar İran seçicilərinin baxışlarından xeyli fərqlidir. Nəticə etibarilə İranda sosial identiklik və siyasi hədəflər tamamilə fərqli kriteriyalar üzərində formalaşır. Məsud Pəzəşkian İran siyasi sisteminin yetişdirdiyi siyasətçi olduğu üçün ondan çox da böyük islahatlar gözləmək doğru deyil. O, İran siyasi dəyərlərini də öz fəaliyyətində bir tezis kimi müəyyən edəcək”.

**H.Babaoğlu hesab edir ki, Məsud Pezeşkian prezident seçildiyi təqdirdə İran-Azərbaycan münasibətlərində yeni səhifə açılacağı barədə fikirlər yanlışdır:** “Seçilən şəxs kim olursa-olsun, söhbət İran vətəndaşından gedir. Biz əgər seçki kampaniyası zamanı əslən azərbaycanlı olan Məsud Pezeşkianın çıxışlarına diqqət yetirsək, görəcəyik ki, o, məhz Azərbaycan vətəndaşlarının, bizim gözləntilərimizlə bağlı elə bir fikir ifadə etməyib və xüsusi hədəf də müəyyənləşdirməyib. Böyük ehtimalla etnik mənsubiyyətinə görə Məsud Pezeşkianın prezident seçilməsi baş tutmaya bilər. O, hətta seçilsə belə, İranın Azərbaycanla münasibətlərində fövqəladə bir irəliləyiş və dərinləşmənin şahidi olmayacağıq”.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev Bakıvaxtı.az-a açıqlamasında deyib ki, İranda keçirilən prezident seçkisi Azərbaycan üçün çox önəmlidir:** “Təkcə ona görə yox ki, İran bizim cənub qonşumuzdur, həm də ona görə ki, İranda milyonlarla soydaşımız yaşayır. Güney Azərbaycanda soydaşlarımızın hüquqları həddindən artıq tapdanır. İranın dini rəhbəri Xameneyi söz versə də, ölkə konstitusiyasına əməl olunmur. İranda çox ciddi düşünülmüş siyasi oyun gedir. İndiyədək düşündürdüm ki, Xameneyi uzaqgörən siyasətçi deyil. Amma yanıldığımı qəbul edirəm. İş ondadır ki, həm Məsud Pezeşkian, həm də Səid Cəlili, yeni iki güclü namizəd ikinci tura qaldı. Qallibaf Cəlilini dəstəkləmək adı ilə geri çəkildi, ancaq onsuz da onun tərəfdarları az idi. Pezeşkian reformist kimi təqdim olunur. Bir neçə yüksək vəzifə tutub, tanınmış həkim-kardioloqdur. Burada maraqlı olan başqa nüanslar var. Xomeneyinin əvvəldən qurduğu oyun ondan ibarətdir ki, Pezeşkianın atası türkdür. Səid Cəlilinin isə anası türkdür. Cəlili diniyönümlü, mühafizəkar şəxsdir. Pezeşkian islahatçıdır”.

Həmsöhbətimiz vurğulayıb ki, Xameneyi bu gedişlə farsları, türkləri, mühafizəkarları, islahatçıları seçki prosesinə cəlb edir.

**Onun sözlərinə görə, ümumiyyətlə, Tehran rejimi xalqlar üzərində hibrid siyasəti çoxdan icra edir. Belə ki, türk kişiləri fars qadınlarla, fars kişiləri isə türk qadınlarla evləndirirlər:** “Bu, İranın dövlət siyasətinin tərkib hissəsidir. Əsas məqsədlərindən biri də türkləri assimilyasiya etməkdir”.

**Nuriyev hesab edir ki, ikinci turda da Pezeşkianın seçkini qazanma şansı daha çoxdur:** “Cəlilinin Xameneyi tərəfindən dəstəklənməyi deyilsə də, qələbə qazanmayacaq. Xameneyi hakimiyyətə öz oğlunu gətirmək istəyir. Cəlilinin prezident seçilməsi dini rəhbərin oğlu üçün ciddi alternativ olar. Ona görə Pezeşkianın seçilməsində Xameneyi də maraqlıdır. Düzdür, Pezeşkian reformator kimi tanınır və ABŞ-la münasibətlərin qurulmasını istəyir. Amma ümumilikdə heç bir prezident inqilabdan sonra yaranmış rejimin ziddinə addım atmır”.

“Hər halda, İran üçün yeni bir səhifə açılır. Lakin Pezeşkianın azərbaycanlılar üçün gün ağlayacağını düşünmürəm. İranda türklərə yaradılan "yaşıl işıq" siyasi texnologiyadan başqa bir şey deyil. Türkləri cilovlamaq üçün ortaya atılmış bir oyundur. Bizi çox aldadıblar. Bu dəfə də aldadırlar", - deyə Cümşüd Nuriyev əlavə edib.

**İran seçkiləri ilə bağlı siyasi analitik Asif Nərimanlının da fikirləri xüsusi diqqət çəkir:** “İranda seçkilər gözlənildiyi kimi, II tura qaldı. Bu o deməkdir ki, seçki prosesi öncədən planlaşdırılan "mühafizəkarların birləşməsi" ssenarisi üzrə davam edir. Mühafizəkarlar arasında Qalibafın yox, Səid Cəlilinin önə çıxması isə əsas diqqətçəkən məqamdır. Halbuki seçkidən öncə iki namizəd Qalibafın xeyrinə geri çəkilmişdi və o, daha loyal fiqur kimi müxtəlif təbəqələr tərəfindən dəstəklənirdi. Bu baxımdan, Qalibafın 3 milyon, Cəlilinin isə 9 milyon civarında səs toplaması şübhələrə yol açır. Seçkiöncəsi rəy sorğularında da mühafizəkar namizədlər arasında Qalibaf Cəlilidən öndə idi. Görünür, dini liderə daha yaxın olan və Rəisi hökuməti tərəfindən də dəstəklənən Cəlilinin önünü açıblar. I turda 10 milyondan çox səs toplayan Pezeşkianın II turda da liderliyini davam etdirməsi sual altındadır: düz məntiqlə Qalibaf da daxil olmaqla mühafizəkarların səsi II turda Cəliliyə getməlidir, digər tərəfdən, İranda seçkinin təkcə qutulara atılan bülletenlərlə həll edilmədiyini nəzərə alsaq, Cəlilinin yeni prezident olması ehtimalı çoxalır. Bu seçki mübarizəsi kimin seçilməsindən daha çox, mühafizəkar qanada daxili qarşıdurmanı davam etdirəcəkləri təqdirdə, nələrlə üzləşə biləcəklərinin nümayiş etdirilməsi baxımından maraqlıdır".

❑ **Cavanşir ABBASLI**
**“Yeni Müsavat”**



İmanqali Tasmaqambetov

## Baş katib: “KTMT NATO-nun addımlarını diqqətlə izləyir”

**Hazırda hərbi potensialının gücləndirilməsi nəzərdən keçirilməsə də, NATO-nun addımları tərəfimizdən diqqətlə izlənilir. APA-nın Gazeta.ru-ya istinadən xəbərinə görə, bunu Kollektiv Təhlükəsizlik Şurasının Baş katibi İmanqali Tasmaqambetov deyib.**

O bildirib ki, hazırda təşkilata üzv dövlətlər şəxsi heyət və mövcud resursların modernləşdirilməsi üzrə işlər davam edir:

“Prinsip etibarilə həm rəhbəri olduğum təşkilat və ona üzv dövlətlər əməkdaşlıq imkanlarını, eləcə də bu və ya digər ölkələrin suverenliyini məhdudlaşdıran blok xarakterli platformaların əleyhinədir. Onu da bildirmək istəyirəm ki, KTMT-nin fəaliyyəti hansısa ölkə və ya təşkilatla qarşıdurma məqsədi daşımır”.

YENİ MÜSAVAT
N 112 (8485) 2 iyul 2024



# Partiyalar deputatlığa namizədlərini müəyyənləşdirir

## YAP siyahını bir neçə günə elan edəcək; hakim partiya bəzi dairələrdə müstəqil namizədləri dəstəkləyəcək

**İyulun 1-dən 1 sentyabr növbədənkənar parlament seçkilərinə rəsmən start verilib. Bununla bağlı Məzahir Pənahovun sədrliyi ilə 2024-cü il iyunun 29-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən "Yeni Müsavat"a verilən məlumata görə, əvvəlcə sədr Məzahir Pənahov komissiya üzvlərini Azərbaycan Respublikası Prezidentinin altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncamı ilə tanış edib və bildirib ki, dövlət başçısının sərəncamı ilə seçkilər 2024-cü il sentyabrın 1-nə təyin olunub. Sonra seçkilərin keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə seçki subyektləri tərəfindən ardıcıl, sistemli və keyfiyyətlə icra olunması, onlara metodiki yardım göstərilməsi və fəaliyyətlərinin səmərəliliyinin artırılması məqsədilə seçki prosesinin bütün başlıca mərhələlərini əhatə edən zəruri məqamların əks olunduğu təqvim planı komissiya üzvlərinin müzakirəsinə təqdim edilib. Sözügedən mühüm seçki sənədinin hər bir hissəsi ayrı-ayrılıqda diqqətə çatdırılıb və aparılan müzakirələrin ardınca təsdiq olunması qərara alınıb.**

İclasda daha sonra qarşıdan gələn seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, eləcə də vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə MSK nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də baxılıb və 9 nəfərdən ibarət tərkibdə ekspert qrupunun yaradılmasına qərar verilib. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq dairə seçki komissiyaları nəzdində 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə seçki dairələrinin dairə seçki komissiyalarına həvalə olunub.

Komissiyanın iclasında, həmçinin deputatlığa namizədliyin qeydə alınması məsələsinə MSK-da baxılması zərurəti yarandığı halda müvafiq sənəd və məlumatların yenidən yoxlanılması məqsədilə komissiya nəzdində aidiyyəti dövlət qurumlarının mütəxəssislərindən ibarət işçi qrupu yaradılıb və MSK-nın üzvü işçi qrupunun rəhbəri təyin olunub.

MSK bəyan edib ki, növbədənkənar parlament seçkiləri ilə əlaqədar birmandatlı seçki dairəsi üzrə deputatlığa namizədlərin irəli sürülməsi prosesi artıq başlayıb.

MSK katibi Arifə Muxtarova deyib ki, seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı rəsmi dərc olunduqdan sonra passiv seçki hüququ olan vətəndaşlar öz təşəbbüsləri ilə, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar, siyasi partiyaların blokları birmandatlı seçki dairələri üzrə namizədlərin irəli sürülməsinə başlaya bilər: "DSK-lar isə sənədlərin seçki komissiyasına təqdim edilməsindən sonra 5 gün müddətində namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə əsaslandırılmış qərar qəbul edirlər".

Bəs siyasi partiyalar namizədlərini dəqiqləşdirib və irəli sürüblərmi? Partiyalar namizədlər siyahısını nə zaman açıqlayacaq? Hansı partiyalar artıq seçkidə iştirak qərarı verib?

**YAP Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov Gununsesi.info-ya açıqlamasında bildirib ki, hazırda deputatlığa namizədlər siyahısı üzərində iş gedir:** "Bir neçə gündən sonra YAP İdarə Heyətinin toplantısı olacaq və deputatlığa namizədlərimiz elan olunacaq".

**Yeni siyahıda hazırkı deputatlardan kimlərin kənarda qalıb-qalmamasına gəlincə, Tahir Budaqov bu barədə suala belə cavab verib:** "Bu barədə yalnız YAP İdarə Heyəti qərar verəcək. Onu da deyim ki, YAP əvvəlki dövrlərdə olduğu kimi bəzi dairələrdə yenə də müstəqil namizədləri dəstəkləyəcək".

**AMİP sədri Arzuxan Əlizadə isə "Yeni Müsavat"a bildirdi ki, partiyanın namizədləri demək olar dəqiqləşdirilib:** "Bəzi dairələrdə üst-üstə düşən namizədlərimiz var, indi bu məsələləri tənzimləyirik. Bəzi texniki prosedurlar da qalıb ki, onları da həll edəcəyik və həftə ərzində Siyasi Şuranın iclası olacaq, iclasda həm partiyanın namizədləri açıqlanacaq, həm də seçkidə hansı formada iştirak edəcəyi ilə bağlı qərar olacaq. Qərarlarımızı mediaya açıqlayacağıq".

**Azad Vətən Partiyasının sədri Akif Nağı isə bildirdi ki, təxminən 25 nəfərdən ibarət namizədlər siyahısı hazırdır. Hazırda dəqiqləşdirmələr gedir:** "Həm namizədlərin özlərinin qəti qərarını almaq istəyirik, həm müxtəlif dairələrdəki vəziyyəti müzakirə edirik. Ona görə də məsələ bir qədər ləngiyir. Hələ başqa partiyalardan kimlərin hansı dairələrdən namizəd olacağı məlum deyil. Bu məsələləri də dəqiqləşdirmək lazımdır. Bu həftə ərzində düşünürük ki, Siyasi Şuranın iclasını keçirək, həm siyahını tam dəqiqləşdirək, həm də seçki məsələləri ilə bağlı tapşırıqları verək, sənədlərimizi hazırlayaq, qərarımızı verək ki, namizədlərimiz partiya siyahısı ilə seçkiyə gedəcək, yoxsa fərdi qaydada gedəcəklər. Namizədlərimiz mütləq olacaq".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn isə bildirdi ki, partiyanın səlahiyyətli nümayəndələrini müəyyənləşdirib iyulun 2-də MSK-ya təqdim edəcəklər**: "Həftənin sonuna kimi isə namizədləri müəyyənləşdirib müvafiq dairələrdən irəli sürməyi planlaşdırmışıq".

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev** isə bildirdi ki, namizədlər dəqiqləşdirilir. Tam hazır olanda məlumat veriləcək.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev** qeyd etdi ki, rəhbərlik etdiyi partiya seçkidə iştirak qərarını verib. Partiya adından deputatlığa namizədliyi irəli sürüləcək şəxslərin siyahısı və dairələrin, eləcə seçki prosesində iştirak edəcək müşahidəçi və səlahiyyətli nümayəndələrin müəyyən edilməsi ilə bağlı işçi qrupu yaradılıb.

**AĞ Partiyanın seçki qərargahının rəhbəri Kamran Məmmədli bildirdi ki, iyulun 1-də partiyanın nümayəndələri Mərkəzi Seçki Komissiyasına ilkin sənədləri təqdim ediblər. Partiyanın yüzə yaxın səlahiyyətli nümayəndələri müəyyən olunub və həmin nümayəndələrin sənədləri, müvafiq siyahısı MSK-ya günün birinci yarısı təqdim olunub:** "MSK-dan bizə cavab gəlməlidir, səlahiyyətli nümayəndələr təsdiqlənməlidir. Bundan sonra isə dairə seçki komissiyalarına AĞ Partiyanın namizədlərinin sənədləri təqdim olunacaq. Partiyanın hazırda minimum 30-a yaxın namizədi partiyada təsdiqlənib, partiyaya yüzə yaxın şəxsdən namizəd olmaq üçün müraciət var. Bunların arasında seçim gedir. Bundan sonra da 30-a yaxın namizədimiz müəyyənləşəcək. Çox güman ki, təxminən 60 namizədimiz irəli sürüləcək. Bu məsələ qarşıdakı iki-üç gün ərzində həyata keçiriləcək".

Respublikaçı Alternativ Partiyası (REAL) Siyasi Komitəsinin üzvü Natiq Cəfərli qeyd edib ki, partiyanın sənədləri artıq hazırdır: "Partiyanın səlahiyyətli nümayəndələrinin siyahısını MSK-ya təqdim etmişik. Çox operativ şəkildə siyahını təsdiqləsinlər. Həm də siyahını bir çox seçki dairəsinə göndərmişik. İyulun 2-də prosesi yekunlaşdıracağıq".

**Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının İdarə Heyəti isə iyulun 6-da partiyanın Ali Məclisinin çağırılması barədə qərar qəbul edib. Partiyanın baş katibi Yaşar Kələntərli bununla bağlı açıqlama verib:** "Biz mövcud şəraitdə erməni işğalına son qoymuş hakim partiyanın resurslarını nəzərə alaraq çox istərdik ki, iqtidar ölkəmizin imicini və milli maraqları nəzərə alaraq, çoxpartiyalı siyasi sistemin inkişafı naminə 83-dən artıq dairədə öz namizədini irəli sürməsin. Bəzi ölkələrin qanunvericiliyində təsbit olunub ki, heç bir partiya və ya seçki bloku parlamentdə yerlərin üçdə ikisindən (2/3-dən) çoxunu tuta bilməz. İmkan yaradılsın ki, digər partiyalarda formalaşmış peşəkar siyasətçilər Milli Məclisə seçilə bilsin, parlament çoxpartiyalılıq prinsipi əsasında formalaşsın və fəaliyyət göstərsin, Milli Məclisdə heç olmasa bir müxalifət fraksiyası olsun.

Əgər Ali Məclis partiyanın öz namizədləri ilə seçkiyə qatılması barədə qərar qəbul edərsə, biz başqa partiyalarla seçki bloku yaradılması istiqamətində danışıqlar aparacaq və cəhd edəcəyik ki, mümkün qədər digər partiyaların tanınmış şəxsləri ilə eyni dairədən namizədlər irəli sürməyək. Ali Məclis öz namizədlərimizlə seçkiyə qatılmağı məqbul saymasa, biz digər müxalifət partiyalarından namizədliyi irəli sürülmüş, yaxud müstəqil namizəd olan vicdanlı və peşəkar siyasətçiləri müdafiə edəcəyik".

Qeyd edək ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nın 1-ci bəndinə uyğun olaraq birmandatlı seçki dairələri üzrə namizədlərin irəli sürülməsi Prezidentin sərəncamı rəsmi dərc olunduqdan sonra başlayır və bir neçə həftə ərzində davam edir.

**MSK-nın Media və ictimaiyyətlə əlaqələr şöbəsinə müdiri Şahin Əsədli Axar.az-a deyib ki, namizədliyin irəli sürülməsi ilə bağlı sənədlər seçki dairəsinə təqdim edildikdən sonrakı 5 gün ərzində təsdiq edilib-edilməməsi barədə qərar qəbul olunur:** "Namizədliyin qeydə alınması üçün sənədlərin təqdim olunması 13 iyul tarixində başlayır, 2 avqust, saat 18:00-da isə başa çatır. Namizədliyi irəli sürmək ayrı hüquqi institutdur, qeydə alınması başqa. Namizədliyini irəli sürmək istəyən şəxs müvafiq dairə seçki komissiyasına yaxınlaşaraq hazır formanı doldurur. Doldurulan formaya 5 gün ərzində baxılır, qərar verilir ki, bu şəxs deputatlığa namizədliyini irəli sürə bilər, ya yox. Təsdiq olunduqda halda imza vərəqələri verilir. İmza toplanıldıqdan sonra isə müvafiq seçki sənədləri dairə seçki komissiyasına təqdim olunur. İmza vərəqələri və seçki sənədlərinin təqdim edilməsi üçün müddət avqustun 2-si başa çatır. Bu proses üçün sənədləri iyulun 13-dən tez, avqustun 2-dən isə gec verə bilməzsiniz. Namizədin qeydə alınması başa çatdıqdan sonra isə 9 avqust tarixində seçkiqabağı təşviqatın aparılması başlanır və avqustun 31-i saat 08:00-da dayandırılır. Bununla bağlı Təqvim Planının 1, 2, 15, 27 və digər bəndlərində ətraflı məlumat var".

**Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 112 (8485) 2 iyul 2024

# Tarif Şurasının yeni qərarlarını şərtləndirən amillər - ekspertlər nə deyir

## Qiymətlərin tənzimlənməsinin iqtisadiyyata təsirləri; ekoloji təmiz avtomobillərə maraq artacaqmı...

**Azərbaycanda AVRO-5 ekoloji standartı ilə istehsal edilən yanacağın qiyməti tənzimlənib.**

Bu barədə Tarif Şurasından məlumat verilib. Qərar 1 iyul 2024-cü il tarixindən qüvvəyə minib.

Belə ki, Aİ-92 markalı avtomobil benzininin pərakəndə satış qiyməti 1 litr üçün 10 qəpik artırılaraq 1,10 manat, dizel yanacağının pərakəndə satış qiyməti isə 1 litr üçün 20 qəpik artırılaraq 1 manat müəyyən edilib. Dizel yanacağından istifadənin daha yüksək ekoloji zərərini nəzərə alaraq, daha çox benzin istehlakına keçilməsi məqsədilə benzinlə dizel arasındakı qiymət fərqi azaldılıb. Qiymət dəyişikliyi enerji təhlükəsizliyinin dayanıqlılığını təmin etməklə yanaşı, yanacağa qənaət edən hibrid, elektrik və sıxılmış təbii qaz (CNG) mühərrikli avtomobillərə keçidi sürətləndirəcək. Statistikaya əsasən, son illərdə Azərbaycana avtomobil idxalında elektrik mühərrikli avtomobillərin sayı artır. Yanacağın keyfiyyətinin yüksəldilməsi öz növbəsində nəqliyyat vasitələrinin təmirinə çəkilən xərcləri azaldaraq istismar müddətini uzadacaq.



**Nəqliyyat eksperti Elməddin Muradlı** mətbuata açıqlamasında bildirib ki, Azərbaycanda avtomobil yanacağının qiymətinin tənzimlənməsi gözlənilən idi. Ekspert bunu Heydər Əliyev adına Neft Emalı Zavodunda (NEZ) aparılan yenidənqurma işləri ilə əlaqələndirib: “SOCAR-ın açıqlamalarında zavodun tam yeni, müasir tələblərə uyğun formatda qurulması və bunun da bəzi xərcləri artırması kimi fikirlər öz əksini tapırdı. Beləliklə, zavod işə düşəndə qiymətdə artım olacağı gözlənilirdi. Bununla paralel olaraq vətəndaşlar keyfiyyətin artırılmasını önə çəkirdilər ki, cüzi qiymət artımı fonunda bu, daha önəmli hesab olunur. Bu gün Tarif Şurası tərəfindən verilən qərar onu göstərdi ki, Neft Emalı Zavodunda istehsal olunan həm Aİ-92, həm də Aİ-95 benzini Avro-5 standartına çatdırılıb. Düşünürəm ki, bu, müsbət addımdır. Çünki 2014-cü ildən bəri hətta Avro-3, Avro-4 səviyyəsində belə yanacaq əldə etmək çətin idi. Ümid edirəm ki, SOCAR bütün yanacaqdoldurma məntəqələrinə keyfiyyətli yanacaq satmaqla yanaşı, həm də digər qurumlarla birlikdə yanacağın keyfiyyətinin dəyişdirilməməsi, sürücülərə daha aşağı oktanlı benzin satılması kimi əməllərin qarşısını alacaq”.

**Ekspertin fikrincə, Aİ-92 markalı benzinin qiymətinin 10 qəpik artırılması fonunda keyfiyyətin daha da yüksəldilməsi o qədər də ciddi problem yaratmayacaq:** “Artıq dünyanın bir çox ölkəsi dizel yanacağından istifadədən imtina edir, çünki bu, ciddi ekoloji problemlər yaradır. Bəzi ölkələr hətta dizel mühərrikli avtomobillərin istehsalını məhdudlaşdırmaqla yanaşı, həm də öz ölkələrində onun istismarını qadağan edirlər. Məsələn, bu addımı bir neçə il öncə Almaniya hökuməti atdı. Bir sıra bölgələrdə dizel mühərrikli avtomobillərin istismarı qadağan edilib və bu tip avtomobillər, ümumiyyətlə, istismar olunmur. Əksinə, elektrik və hibrid avtomobillərə üstünlük verilir. Azərbaycanın da məqsədi insanların marağını ekoloji təmiz avtomobillərə yönəltməkdir. Ekoloji təmiz nəqliyyat vasitələri olan hibrid və elektromobillər üçün kifayət qədər güzəştlər tətbiq olunur. Buna görə də onların ölkəyə gətirilməsi daha ucuz başa gəlir və ətraf mühitin qorunmasında bu avtomobillərin rolu böyükdür. Nəzərə almaq lazımdır ki, Bakı şəhərində ətraf mühitin çirklənməsinin 80%-i avtomobillərin ixrac etdiyi zəhərli qazların payına düşür. Burada da dizel yanacağı böyük önəm daşıyır. Benzinlə dizel arasında qiymətin yaxınlaşması ona dəlalət edir ki, insanlar öz avtomobillərində daha çox benzin istehlak etsinlər və ətraf mühitə atılan zərər də azalmış olsun. Bununla yanaşı, elektromobillər və hibrid avtomobillər üçün yenə də geniş imkanlar qalmaqdadır”.

**E.Muradlı qeyd etdi ki, şayiələrə görə, kifayət qədər ciddi qiymət artımından söhbət gedirdi:** “Ancaq belə olmadı, 10 və 20 qəpik fərq yarandı. Qarşılığında isə Aİ-95 premium benzinin qiymətinin 40 qəpik azaldılması müsbət addımdır. Bunu alqışlamaq lazımdır. Aİ-92 ilə Aİ-95 arasındakı qiymət fərqi 1 manat idi. Bu qiymətin tənzimlənməsində isə Tarif Şurası fərqi 50 qəpiyə çatdırdı. Yəni bir manat on qəpiyə Aİ-92, bir manat altmış qəpiyə isə Aİ-95 premium benzini satılır. Hesab edirəm ki, gələcəkdə avtomobil alarkən dizelə maraq göstərən insanlar da benzinlə dizel arasında cəmi 10 qəpik fərq olduğunu görüb daha çox ziyan vuran, daha çox təmir xərci tələb edən dizel mühərrikli avtomobil yox, məhz benzin mühərrikli avtomobillər almağa üstünlük verəcəklər. Ümumiyyətlə, gələcəyin maşınları elektrik və hibrid avtomobillərdir. Azərbaycanda da buna sürətli keçid müşahidə edilməkdədir”.

**İqtisadçı Eyyub Kərimli isə bildirib ki, iqtisadi islahatların müsbət nəticələri müəyyən müddətdən sonra görünməyə başlayır:** “Bəzi islahatlar var ki, həyata keçməsi zamanından asılı olmayaraq həmişə emosional qarşılanır. Lakin bu islahatlar bəzən zərurətdən irəli gəlir, bəzən də müəyyən səbəblərə görə gecikir. 2024-cü ildə ölkədə benzin istehsalı 1 milyon 519,6 min tona, 2025-ci ildə 1 milyon 535,6 min tona, 2026-cı ildə isə 1 milyon 551,6 min tona qədər artacaq. Beləliklə, 2024-2026-cı illərdə benzin istehsalı 7,5% artacaq.

Proqnozlara görə, 2024-cü ildə 2 milyon 542,6 min ton, 2025-ci ildə 2 milyon 536,5 min ton, 2026-cı ildə 2 milyon 535,6 min ton dizel yanacağı istehsal ediləcək.

Yanacağın qiymətinin artmasının iqtisadiyyata təsirlərini bir neçə istiqamətdən qiymətləndirmək lazımdır. Aİ-95 markalı benzinin ucuzlaşması birmənalı olaraq avtomobil parkının yenilənməsinə, daxili yanacaq istehsalının stimullaşdırılmasına, ətraf mühitin qorunmasına, hibrid və elektrokarların idxalını stimullaşdıracaq. Bu keçidi daha da sürətləndirmək üçün hibrid və elektrokarların idxalına əlavə yeni güzəştlərin tətbiq edilməsinin daha müsbət təsirləri ola bilər. Həmçinin fikrimcə, Aİ-95 və Aİ-98 markalı benzinin qiymətlərinin dövlət tənzimlənməsindən çıxararaq sərbəst rəqabətlə təyin edilməsi daha müsbət nəticələr verə bilər".

**E.Kərimli hesab edir ki, Aİ-92 benzinin keyfiyyətinin AVRO-5 standartlarına çatdırılmasına çoxdan zərurət yaranmışdı:** “Əlbəttə ki, keyfiyyətin artırılması qiymətin də artırılmasını şərtləndirir. Dizel yanacağının qiymətinin artmasının sözsüz ki, iqtisadiyyata və əsasən də kənd təsərrüfatına müəyyən təsirləri olacaq. Habelə dizel mühərrikli avtomobillərin idxalının azalmasına, ölkədə olan avtomobillərin isə istismardan çıxarılmasına təsir edəcək. Belə ki, bu avtomobillərin istismarı benzinlə işləyən avtomobillərin istismarından daha baha başa gəlir. Bu isə tədricən dizel mühərrikli avtomobillərdən imtina edilməsi ilə nəticələnəcək ki, bu da ümumi avtoparkın yenilənməsinə müsbət təsir göstərəcək. Həmçinin ətraf mühitin qorunmasına, büdcəyə əlavə vəsaitin cəlb olunmasına da müsbət təsirləri olacaq. Digər tərəfdən, kənd təsərrüfatı məhsullarının qiymət artımının qarşısını almaq üçün fermerlərə dizel üçün verilən subsidiyalar mütləq artırılmalıdır. Kənd təsərrüfatı texnikası yanacağına güzəştli limitlər də təyin edilə bilər. Çünki dizel yanacağının qiymətinin 25% artırılması iqtisadiyyatın digər sahələrində də qiymət artımına təsir edəcək. Yekunda bunların fonunda əmək haqqının artırılması da gündəmin əsas məsələsi kimi qalmaqdadır”.

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

## Hərbi xidmətlə bağlı yekun tibbi müayinə bu qaydada aparılır - nazirlik açıqladı



**Bir sıra kateqoriya üzrə rəy verilmiş hərbi xidmətə çağırılanlarla bağlı yekun tibbi müayinəni bu gündən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir. Bu barədə Musavat.com-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib.**

Çağırışçının sıradankənar hərbi xidmətə yararlılığı, hərbi xidmətə həm dinc, həm müharibə dövründə yararsız hesab edilməsi və s. ilə bağlı qərarların qəbulu üçün yekun tibbi müayinə proseduru necədir?

Prezident İlham Əliyevin Fərmanına əsasən, bu gündən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı aşağıdakı 4 kateqoriya üzrə qərarlardan birinin qəbul edilməsi üçün həmin vətəndaşların yekun tibbi müayinəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir:

sıradankənar həqiqi hərbi xidmətə yararlılıq haqqında (“B” kateqoriyası),

sağlamlıq vəziyyətinə görə həqiqi hərbi xidmətə müvəqqəti yararsız hesab edilməklə çağırışa möhlət verilməsi haqqında (“Ç” kateqoriyası),

dinc dövrdə həqiqi hərbi xidmətə yararsızlıq, müharibə dövründə məhdud yararlılıq haqqında (“C” kateqoriyası),

həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızlıq haqqında (“D” kateqoriyası).

Yekun tibbi müayinəni nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi (DTSERA) hərbi həkim komissiyalarının tibbi müayinəsinin nəticələri və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi əsasında aparır. Bu müayinələrin keçirilməsi üçün agentliyin müasir tibbi avadanlıqlarla təchiz edilmiş Tibbi Qiymətləndirmə Mərkəzi də yaradılıb.

Həmçinin nazirlik tərəfindən yekun tibbi müayinə prosedurunun da rəqəmsal infrastrukturu qurulub. Nazirliyin “Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə” altsisteminin təkmilləşdirilməsi, aidiyyəti qurumlarla elektron məlumat mübadiləsi imkanları təmin edilib.

Bu da yekun tibbi müayinə xidmətinin çevikliyinin və şəffaflığının artırılmasına xidmət edir.

Yekun tibbi müayinə proseduru aşağıdakı kimidir:

Çağırışçıya dair verilmiş rəy Mərkəzi Hərbi Həkim Komissiyası tərəfindən təsdiqləndiyi halda çağırışçının yekun tibbi müayinəsinin aparılması üçün e-sistem üzərindən Agentliyin “Vətəndaşların qəbulu” altsisteminə göndəriş (Forma 44) daxil edilir.

Göndəriş əsasında çağırışçı üçün əyani müayinəyə elektron növbə təyin edilir.

Növbəlilik əsasında çağırışçılar agentliyin həkimləri tərəfindən əyani şəkildə tibbi müayinələrdən keçirilir.

Müayinəyə dair qəbul edilmiş qərar elektron sistemə daxil edilir və qərar barədə çağırışçıya elektron qaydada məlumat verilir.

Onu da bildirək ki, çağırışçı yekun tibbi müayinəyə dair qəbul edilmiş qərarla razılaşmadığı halda, o, aidiyyəti qurumların təmsil olunduğu Apelyasiya Şurasına müraciət edə bilər.

YENİ MÜSAVAT
N 112 (8485) 2 iyul 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu**

# O'Brayenin Bakıda vətəndaş cəmiyyəti ilə görüşü - Qərbin qərəzi bitmir

## Blinkenin köməkçisi insan hüquqları sahəsində beynəlxalq öhdəliklərə riayət etməyə çağırıb; amma beynəlxalq təsisatların saxta qətnamələri ara vermir - rəy

**ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayen Azərbaycan hakimiyyətini insan hüquqları sahəsində beynəlxalq öhdəliklərinə riayət etməyə çağırıb. O, Bakıya səfəri zamanı vətəndaş cəmiyyəti fəalları ilə görüşüb.**

"Bakıda hüquq müdafiəçiləri və vətəndaş cəmiyyəti nümayəndələri ilə görüşdük və Azərbaycan hökumətinə insan hüquqları sahəsində beynəlxalq öhdəliklərinə riayət etmək çağırışını təkrar etdik", - deyə O'Brayen X sosial şəbəkəsində yazıb. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı təbii ki, demokratiyanın mühüm sütunlarından biridir. Bakıda olarkən Blinkenin müavini sivil toplumun üzvləri ilə görüşməklə ölkəsinin ictimai sektora diqqətini ifadə etmiş olub. Sözsüz ki, vətəndaş cəmiyyətinin vəziyyəti ideal sayıla bilməz, lakin bu yöndə atılan kifayət qədər iri addımlar var. Sadəcə, bəzi hallarda beynəlxalq təşkilatlar bu sahədəki vəziyyəti Azərbaycan əleyhinə qara piar kampaniyasına çevirirlər. Belə desək, insan hüquqları məsələsi bir sıra hallarda güc mərkəzlərinin kənardan müdaxilə elementinə çevrilir. Azərbaycandakı yerli insan haqları təşkilatları bəyan edirlər ki, vətəndaş cəmiyyətinin inkişafı üçün QHT-lərə Dövlət Dəstəyi Agentliyi mühüm addımlar atır, amma kənar təsirlər, beynəlxalq təsisatların qərəzli qətnamələri və çağırışları da az deyil.

Son illərdə bu ədalətsiz bəyanatlarda Qarabağın erməni sakinlərinin hüquqları və abidələrin qorunması kimi sübutsuz detallar da yer alır. Elə bugünlərdə konqresmen Adam Şiff və tərəfdarları Blinkenə məktubda "Qarabağda nəsli kəsilməkdə olan erməni irsi"nin təəssübünü çəkiblər. Eləcə də Avropa Parlamenti, Fransa Senatı, müxtəlif insan haqları təşkilatları faktsız-sənədsiz qətnamələrlə Azərbaycanda insan hüquqlarının vəziyyəti haqda şişirdilmiş rəy yaratmağa çalışıblar. Xüsusən də Qarabağı tərk etmiş erməni əhalisi barədə verilən rəylər, qətnamələr yalan məlumatlara söykənir. Çünki antiterror əməliyyatı zamanı belə dinc ermənilərin hüquqları pozulmayıb, zərər görməyiblər. O baxımdan Konqresdən Blinkenə göndərilən məktubların arxasındakı hiylə Azərbaycanda insan haqlarının vəziyyəti barədə yanlış təsəvvür formalaşdırmaqdır.



**"Müstəqil Həmkarlar" İctimai Birliyinin həmtəsisçisi Fuad Əliyev**in sözlərinə görə, insan hüquqlarının müdafiəsi üçün yerli təşkilatlar çoxsaylı müraciətlər qəbul edir. Onlardan birinin də həmtəsisçisi olduğu təşkilatı göstərən F. Əliyev hesab edir ki, bu sahədə problemlər çox olsa belə, dövlət orqanlarına sorğu göndərilir, əlaqə saxlanır, hüquqları pozulmuş vətəndaşların işinin həllinə dəstək verilir: "Blinkenin köməkçisi Azərbaycana daha prioritet mövzuları müzakirə etməyə gəlmişdi. Sadəcə, gəlmişkən elə təsəvvür yaratdı ki, ABŞ insan haqları ilə bağlı vəziyyəti də diqqətdə saxlayır. Halbuki sonuncu dərəcəli məsələ kimi yanaşdı. Buna qədər sülh, dəhliz, enerji və s. mövzuları masaya çıxarmışdı. Ona görə də hansısa çağırışlara məhəl qoyaraq vətəndaş cəmiyyətinin inkişafı, insan haqlarının qorunması haqda fikirləşməli deyilik, özümüz bilməliyik ki, bu problemləri bizə kənardan deməklə yox, zərurət olduğu üçün həll etmək lazımdır. Bu, dövlətin, cəmiyyətin inkişafı naminə vacibdir". **İB həmtəsisçisi hesab edir ki, beynəlxalq təşkilatlar insan haqları mövzusunu siyasi alverə çevirib:** "Buna siyasi şantaj da demək olar. Qərb fondları, ayrı-ayrı təsisatlar təzyiq vasitəsi olaraq demokratiya, insan hüquqları kimi artıq nihilist məsələləri gündəmə gətirirlər. Bizim öz inkişaf modelimiz var və Azərbaycana kənardan edilən çağırışlarla nəyisə diktə etmək mümkün deyil. Cənab Prezident xaricdən əleyhimizə aparılan çirkin kampaniyalara hər zaman dəqiq cavab verib. Odur ki, biz ABŞ, yaxud başqa Qərb ölkələrinin çağırışları ilə hərəkət etmirik. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı üçün xeyli iş aparılır. Eyni zamanda internet azaddır və sosial media platformalarında vətəndaş cəmiyyəti çox aktivdir. Ümumiyyətlə, Azərbaycan demokratik inkişaf yolunda irəliləyən ölkələr sırasında yer almaqdadır. Ölkəmizdə demokratiya və onun başlıca atributları olan vətəndaş cəmiyyəti və hüquqi dövlətin mütləq komponentlərinin təşəkkül tapmasını, həmçinin inkişafını təmin edən başlıca amillər var".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU

# 5 iyul seçkisi İran üçün sürpriz ola bilərmi?..

**İranda prezident seçkiləri ikinci tura qaldı. Amma ikinci turu çox gözləmək lazım gəlməyəcək - elə bu həftə, ayın 5-də İran seçiciləri prezidentin kim olacağı məsələsinə aydınlıq gətirəcək.**



**Hüseynbala SƏLİMOV**

Amma seçkiyə bir-iki gün qalsa da siyasi təhlilçilər səbrsizlik edir, onun nəticələrini artıq indidən müəyyənləşdirməyə çalışırlar.

Təkrarçılıq olsa da, hələlik qeyd edək ki, ikinci tura M.Pezeşkian və S.Cəlili keçdi. Bəli, bir islahatçı və bir mühafizəkar! Diqqət çəkən budur ki, birinci turda liderlik islahatçıya nəsib oldu - bəli, birinci turun lideri həkim-kardioloq, azərbaycanlı M.Pezeşkian oldu.

Prinsip etibarilə, elə irəlicədən də belə təxmin edilirdi - reytinq sorğularında Məsud Pezeşkian liderlik edirdi, baxmayaraq ki, hakimiyyət dairələri M.B.Qalibafı müdafiə edir və Pezeşkianın yalnız seçici fəallığını artırmaq, seçkilərə daxili və xarici marağı artırmaq üçün seçkiyə buraxıldığı bildirilirdi.

Amma biz hələ birinci tur ərəfəsində yazmışdıq ki, tutaq, seçki fəallığı artdı, amma insanlar Pezeşkiana səs verdilər, bəs onda nə olacaq? Hakimiyyət dairələri isə özlərini elə aparırdılar ki, sanki bu ssenari onlar üçün hətta nəzəri cəhətdən də mövcud deyil.

Bəs seçkinin detallarına varsaq, bununla bağlı nə demək olardı? Birincisi, qeyd etmək lazımdır ki, seçki ərəfəsi reytinq sorğuları doğruldu, Pezeşkian seçkilərin lideri oldu. İkincisi, seçici fəallığı ilə bağlı deyilənlər təsdiqini tapmadı, fəallıq hətta ötən prezident seçkisində olduğundan da aşağı oldu. Onda bəs ikinci turda nə gözlənilir?

Hamı daha çox Pezeşkina yüksək şanslar vəd edir. Məsələ bundadır ki, insanlar islahatçı namizədin üstünlüyünü görüb seçki ilə maraqlana bilərlər, bu isə seçici fəallığının artmasına səbəb ola bilər. Amma burada bir məqam var. Birinci turda üç mühafizəkar namizəd iştirak edirdi. Bu da istər-istəməz səslərin bölünməsinə gətirib çıxarırdı.

İkinci turda isə cəmi bir mühafizəkar olacaq və bu düşərgəni dəstəkləyənlər səslərini mühafizəkar S.Cəliliyə verəcək. Qərəz, ikinci tur üçün də mümkün ssenarilərin sayı çoxdur. Görək, bunların hansı doğrulacaq? Belədə isə, bir daha deyirik ki, ən şanslı namizəd M.Pezeşkian sayılır...

Amma ola bilsin, iranlı seçicilər növbəti dəfə müəyyən ümidlərə qapılacaq və seçkilərdə fəal iştirak edəcək və hətta islahatçı namizədə səs verəcəklər. Fəqət, bu, nəyisə dəyişəcəkmi? Onların ümidləri doğrulacaqmı? Təəssüf ki, İrandan kənarda da bu xüsusda gözləntilər elə də böyük deyil. Məsələn, ABŞ rəsmiləri hətta birinci tur ərəfəsində bəyan etdilər ki, onların seçkilərdən heç bir gözləntiləri yoxdur və İranda müsbətə doğru heç bir irəliləyiş, dəyişiklik olmayacaqdır. Bəs beynəlxalq dairələri bu cür pessimist fikirlərə yönəldən nədir? Bəri başdan deyək ki, məsələ heç onda da deyil ki, İranda prezident heç də ən həlledici post deyil. Yox, problem başqadır.

Bu vaxta qədər İranda islahatçı çətiri altında hakimiyyətə gələn çox olub, amma onların heç bir ümidləri doğrultmayıb. Bəli, M.Pezeşkian daha çox islahatçı kimi görünür. O, ruhani elitasına daxil deyil, bir az əvvəldə qeyd etdiyimiz kimi, həkim- kardioloqdur. Üstəgəl, bu adam öz mühafizəkar rəqibləri kimi hakimiyyətdə mühafizəkar postlarda da təmsil olunmayıb, səhiyyə naziri kimi çalışıb, parlament üzvü olub - o, Qalibaf kimi briqada generalı, Purməhəmmədi kimi prokuror olmayıbdır. Gəl, səhv etmiriksə, bu adam vitse-prezident də olub. Bu isə o deməkrdir ki, o, İran siyasətində yeni adam deyil. Üstəgəl, Pezeşkian seçki vaxtı bəyan etdi ki, dini lider S.Ə.Xameneyinin bütün tapşırıqlarını yerinə yetirəcək və C.Zərifi də xarici işlər naziri təyin edəcək...

Əlbəttə, bütün bunlar o demək deyil ki, heç bir ümid yoxdur. Yox, bu, siyasətdir və burada hər şey ola bilər. Məsələn, bir vaxt Mixail Qorbaçov da Kommunist Partiyasının sıralarından çıxmışdı, amma bu, ona kommunist rejimini de-montaj etməyə mane olmadı. Kim bilir, bəlkə elə İranda da belə olacaq?..

YENİ MÜSAVAT
N 112 (8485) 2 iyul 2024

# İpək Yolu Qrupu Orta dəhlizi və yaşıl enerjiyə keçidi müzakirə etdi



**İyulun 1-də Ruminiyanın Buxarest şəhərində keçirilən ATƏT PA-nın 31-ci İllik Sessiyası çərçivəsində qurumdakı Azərbaycan və Rumıniya nümayəndə heyətlərinin, eləcə də Azərbaycanın Rumıniyadakı səfirliyinin birgə təşkilatçılığı ilə İpək Yolu Qrupunun növbəti iclası keçirilib. İclas "ATƏT PA-nın İpək Yolu Qrupunun rolu nədən vacibdir: dayanıqlı nəqliyyat əlaqələndirməsi və yaşıl enerji keçidinin sürətləndirilməsi" mövzusuna həsr edilib.**

Musavat.com xəbər verir ki, iclası açan Azərbaycan nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın İqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit üzrə ümumi komitəsinin və eyni zamanda İpək Yolu Qrupunun sədri Azay Quliyev tədbir iştirakçılarını salamlayaraq iclasın gündəliyi barədə məlumat verib.

Tədbirdə əvvəlcə ATƏT PA-nın İpək Yolu Qrupunun sədri Azay Quliyevin məruzəsi dinlənilib. Məruzədə Azay Quliyev ötən dövr ərzində həyata keçirilmiş işlər barədə danışıb, Azərbaycanın Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi ilə bağlı planları, Orda nəqliyyat dəhlizinin genişlənməsi üçün Zəngəzur dəhlizinin əhəmiyyətini diqqətə çatdırıb. A.Quliyev Azərbaycanın cari ilin noyabr ayında COP-29 ev sahibliyi edəcəyini, bu tədbirin qlobal iqlim problemlərinin həlli istiqamətində mühüm hadisə olduğunu vurğulayıb.

Daha sonra söz Rumıniya Parlamentinin vitse-spikeri və ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Dan Barnaya verilib. Çıxışında o, yaşıl enerjinin inkişafını əldə etmək üçün ümumi resurslardan istifadənin vacibliyini qeyd edib.

Qrupunun iclasında Rumıniyanın enerji nazirinin müavni Dan Dragan çıxış edərək müzakirəyə qoyulan dayanıqlı əlaqələndirmə və yaşıl enerjiyə keçidin əhəmiyyətini vurğulayıb, ölkəsinin bu haqda təcrübəsini bölüşüb.

ATƏT PA-nın prezidenti Pia Kauma ATƏT PA-nın İpək Yolu Qrupunun fəaliyyətini yüksək qiymətləndirib və müzakirə olunan mövzunun daima qurumun siyasi gündəliyində olduğunu bildirib.

ATƏT PA-nın İqtisadi və ətraf mühit işləri üzrə koordinatoru, səfir Bakıt Yusupov təqdim olunan mövzu üzrə dəstəyini bildirib və Azərbaycanın nəqliyyat bağlantısı mövzusunda aparıcı rol oynadığını xüsusilə vurğulayıb.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyev müzakirə edilən mövzu çərçivəsində yaşıl enerjiyə keçidin strateji əhəmiyyəti haqqında danışıb.

Toplantının davamında İpək Yolu Qrupunun iki sədr müavinin seçikləri keçirilib. Qrupun sədr müavinləri vəzfilərinə Xorvatiya nümayəndə heyətinin rəhbəri Mixayel Zmajloviç və Monteneqro nümayəndə heyətinin üzvü Jevto Erakoviç seçilib.

Gündəliyin növbəti maddəsi üzrə çıxış edən Xorvatiya nümayəndə heyətinin rəhbəri Mixayel Zmajloviç İpək Yolu Qrupunun Bakı, Vyana, Minsk və Andermatda uğurlu konfranslar keçirdiyini xatırladıb.

Mixayel Zmajloviç növbəti beynəlxalq konfransın Xorvatiyada keçirilməsi təklifini irəli sürüb. Qrup üzvləri konfransın 2025-ci ilin aprel ayında keçirilməsi haqqında qərar qəbul edib.

İclasda Milli Məclisin ATƏT PA-dakı nümayəndə heyətinin üzvləri Tahir Mirkişili və Tural Gəncəliyev, eləcə də Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli və Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov iştirak ediblər.

**❑ Musavat.com**



# Fransada seçkilərin ilginc nəticələri - Makronun iflası...

## Le Penin lideri olduğu Milli Birlik Partiyası və müttəfiqləri parlament seçkilərinin ilk turunda qalib gəlib; **Elnur Məcidli:** "Radikal sağın hakimiyyətə gəlməsi Makronun istefası ilə nəticələnəcək"

**Fransada Milli Assambleyaya (parlamentin aşağı palatası) növbədənkənar seçkilər üçün səsvermənin ilkin nəticələri bəlli olub. Birinci turda seçilmək üçün namizəd yaşadığı bölgədəki seçicilərin yarıdan çoxunun dəstəyini almalıdır. Birinci turda azı 12,5 % səs toplayan namizədlər iyulun 7-də keçiriləcək ikinci turda iştiraka buraxıla bilər. Marin Le Penin lideri olduğu Milli Birlik Partiyası və müttəfiqləri Fransada keçirilən parlament seçkilərinin ilk turunda 33.4 faiz səslə qalib gəlib. Fransa Daxili İşlər Nazirliyinin məlumatında qeyd olunub. Məlumata görə, solçu Yeni Xalq Cəbhəsi 27.98 faiz səslə ikinci yerdə qərarlaşıb. Fransa prezidenti Emmanuel Makronun koalisiyası isə 20.76 faiz səslə üçüncü olub. Seçkilərin ikinci turu iyulun 7-də keçiriləcək.**

"Yeni Müsavat" qeyd edir ki, növbədənkənar seçkiləri Fransa prezidenti Emmanuel Makron iyunun 9-da prezident koalisiyasının Avropa Parlamentinə seçkilərdə ciddi məğlubiyyəti fonunda təyin edib. Fransa Milli Assambleyasına (parlamentin aşağı palatası) seçkilərin birinci turu Yeni Kaledoniyanın Uailou kommunasında seçki məntəqələrində pozulub. "Outre-mer La Premiere" telekanalının məlumatına görə, naməlum şəxslər şəhər meriyasının girişini avtomobillə bağlayıb və onu yandırıblar. Hadisə Avropa vaxtı ilə iyunun 30-a keçən gecə, meriya binasında seçki məntəqələri açılmazdan əvvəl baş verib. Yanan avtomobillə yanaşı, naməlum şəxslər girişdə ağır beton blok və ağacdan baryerlər qoyublar. Nəticədə nə seçicilər, nə də kommunanın meri binaya daxil ola bilməyib, seçki qutuları da quraşdırılmayıb. Səsvermə pozulub.

Yeni Kaledoniyada da seçkilər xüsusilə gərgin ab-havada keçirilir, çünki hökumətin başlatdığı seçki islahatına etirazlar hələ də tam səngiməyib. İslahata əsasən, yerli xalqlarla yanaşı, Yeni Kaledoniyada 10 ildən artıq yaşayan vətəndaşlara da səsvermə hüququ verilir. May iğtişaşlarından sonra adaya əlavə polis və jandarm dəstələri göndərilib. Onlar dövlət qurumlarının fəaliyyətini təmin edir, etirazçıların yollarda qurduqları barrikadaları aradan qaldırırlar. Seçkinin ilkin nəticələrindən sonra Fransada iğtişaşlar başlayacağı haqda da proqnozlar var.

"ABŞ prezidenti Co Bayden, Fransa lideri Emmanuel Makron, Almaniya kansleri Olaf Şolts dünyada sabitliyi pozmaq üçün hər şeyi edir. Lakin onların ölkələrinin vətəndaşları liderlərinin kursunu dəstəkləməkdən imtina edirlər". Bunu Rusiya Dövlət Dumasının spikeri Vyaçeslav Volodin özünün Telegram kanalında yazıb. "Bayden və Makronun uğursuzluqları ona gətirib çıxarıb ki, amerikalılar və fransızlar fərqli siyasət lehinə seçim etməyə başlayıblar. ABŞ və Fransa vətəndaşları öz seçimlərini milliyönümlü siyasət yeritmək, iqtisadiyyatların inkişafı və qlobal təhlükəsizlik məsələlərinin həlli zərurətindən yana edirlər. Böyük Britaniyanın mühafizəkarlarını da uğursuzluq gözləyir. Səbəbi özlərində axtarmalıdırlar", - o bildirib.

**Fransada yaşayan azərbaycanlı hüquqşünas Elnur Məcidlinin "Yeni Müsavat"a bildirdiyinə görə, Avropada radikal milliyyətçilərin səsinin artması ilə bağlı son illər həyəcan təbilləri çalınsa da, milliyyətçilərin qarşısıalınmaz yüksəlişinin davam etməsində əsas faktorlar qanunsuz miqrasiya və COVİD pandemiyasından sonra başlayan yüksək inflyasiyanın Rusiya-Ukrayna müharibəsi fonunda daha da artaraq davam etməsidir:** "Xüsusən 6-9 iyun tarixləri arasında keçirilən Avropa Birliyinin parlament seçkiləri, birliyə üzv olan ölkələrin əksəriyyətində radikal sağ, yaxud milliyyətçilərin qələbəsi ilə yekunlaşdı. Artıq Avropa Birliyi Parlament Assambleyasının böyük əksəriyyətinin milliyyətçi deputatlardan formalaşması yaxın 5 ildə Avropa Birliyinin fəaliyyət mexanizmlərinin hansı yöndə dəyişməsi ilə bağlı ilkin konturları bizə verməkdədir. AB Parlament seçkilərində milliyyətçilərin zəfəri, Belçika baş naziri De Croonun istefası ilə nəticələndi, Fransada isə ölkə prezidenti Emmanuel Makron çox ciddi siyasi risk alaraq ölkə parlamentini buraxdı və Fransada keçiriləcək Olimpiya oyunları ərəfəsində yeni parlament seçkilərinin keçirilməsinə qərar verdi".

**E.Məcidlinin sözlərinə görə, Fransada keçirilən parlament seçkilərinin ilk turunda radikal milliyyətçi Marine Le Penin liderlik etdiyi Milli Birlik Partiyası 34 faiz səslə 1-ci olub, 2-ci yerdə radikal sol partiyaların ittifaqı sayılan Xalq Cəbhəsi 28 faiz toplayıb, ölkə prezidenti Makronun sağ mərkəz ittifaqı isə 20 faiz səslə 3-cü yerdə qərarlaşıb:** "Bu həftəsonu isə parlament seçkilərinin 2-ci turu keçiriləcək və hər şey yekun nəticələrdən asılı olacaq. Əgər 2-ci turda da Milli Birlik Partiyası 1-ci yeri tutarsa, 577 yerlik Milli Assambleyada, radikal milliyyətçilərin 255-295 arası yer əldə edəcəyini söyləmək olar, belə olan halda radikal milliyyətçilər bir çox qanun layihəsini parlamentdən rahatlıqla çıxara biləcəklər. Parlament seçkiləri öncəsindəki teledebatlarda Milli Birlik Partiyasının baş namizədi, 28 yaşlı Jordan Bardellanın çıxışlarından belə qənaətə gəlmək olar ki, radikal milliyyətçilər hakimiyyətə gəldikləri təqdirdə, ilk addım olaraq, miqrasiya axını durdulacaq, yeni məscidlərin inşasına icazə verilməyəcək, xaricilərə verilən sosial yardımlar kəsiləcək, başörtüsü universitetlərdə və ictimai yerlərdə yasaqlanacaq. Radikal milliyyətçilərin hakimiyyətə gəlməsi, Fransada cəmiyyəti iki yerə bölmə ehtimalı böyükdür, xarici-yerli qarşıdurması yaranarsa, bu prosesin Fransanı vətəndaş müharibəsinə aparma təhlükəsi yarana bilər".

**E.Məcidlinin fikrincə, xarici siyasətdə isə radikal milliyyətçilərin zəferi ilə Fransanın Avropa Birliyini tərk etməsi, Rusiya ilə yaxınlaşması labüd görsənir:** "Hər şey 2-ci turun nəticələrindən asılı olacaq və belə görünür ki, fransız xalqı radikal sol ilə radikal sağ arasında seçim etməli olacaq. Fikrimcə, radikal sağın hakimiyyətə gəlməsi, çox güman ki, Makronun istefası ilə nəticələnəcək və yaxın aylarda Fransa növbədənkənar prezident seçkisi keçirməli olacaq".

**Siyasi ekspert Ramiyə Məmmədova Makronun ikinci ağır zərbə aldığını düşünür. Onun fikrincə, Avroparlamentə seçkiləri uduzan Makronun partiyası isterika vəziyyətinə düşdüyü üçün daxili seçkilərə getmək qərarı verməklə növbəti məğlubiyyətə imza atmış oldu. Ekspert Makronun vabank getdiyini müşahidə edir:** "Bu, qumar masasında məğlubiyyətə bənzəyir. Makron uduzduqca aqressivləşir. Lakin Le Pen də mütərəqqi ideyaları olan siyasətçi deyil. Əvvəla, ifrat sağçıdır, ikincisi, ermənipərəstdir. Ona görə çox da sevinməyə dəyməz. Bununla belə, Makron ciddi seçki zərbələri alıb və nokaut vəziyyətinə yaxındır".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 112 (8485) 2 iyul 2024



# Ərdoğanın Şuşa səfərindən mühüm gözləntilər - Türk Zirvəsində nələr olacaq?

## Türk Dövlətləri Təşkilatının liderləri qala şəhərdə bir araya gələcəklər; ekspertlərdən ilginc açıqlamalar

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bu ay bir sıra ölkələrə səfər edəcəyi gözlənilir. Bu barədə Türkiyə mediası məlumat yayıb. Artıq Türkiyə prezidentinin iyul ayı üzrə səfərlərinin siyahısı açıqlanıb. Məlumatda qeyd edilib ki, R.T.Ərdoğan 3-4 iyul tarixlərində Qazaxıstanın paytaxtı Astanada keçiriləcək Şanxay Əməkdaşlıq Təşkilatının Dövlət və Hökumət Başçılarının Zirvə toplantısında iştirak edəcək. Daha sonra o, iyulun 6-da Şuşa şəhərində keçiriləcək Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısına qatılacaq.**

Bu yerdə qeyd edək ki, cənab Ərdoğan 9-11 iyul tarixlərində ABŞ-ın paytaxtı Vaşinqtonda keçiriləcək NATO liderlərinin zirvə görüşündə də iştirak edəcək.

Xatırlatmaq yerinə düşər ki, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan işğaldan azad olunmuş Şuşa şəhərinə ilk dəfə 2021-ci ilin 15 iyununda səfər edib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə tarixi Şuşa Bəyannaməsini imzalayıb. Bu, Türkiyə prezidentinin 28 illik işğaldan sonra azad olunan Şuşa şəhərinə ilk səfəri olmaqla yanaşı, R.T.Ərdoğan torpaqlarımızın erməni işğalından təmizlənməsinin ardınca Qarabağa səfər edən ilk xarici ölkənin dövlət başçısı oldu. O tarixdən sonrakı dövrdə isə bir çox dövlətlərin liderləri Qarabağa səfərlər edib. Türkiyə lideri isə sonrakı illərdə hava limanlarının açılış mərasimlərinə də qatılıb. R.T.Ərdoğanın budəfəki səfəri isə Xankəndi başda olmaqla bütün digər ərazilərimizin azad olunmasından sonraya təsadüf edəcək. Vaxtilə R.T.Ərdoğan və İ.Əliyevin Cıdır düzündən Xankəndi haqda söhbəti də unudulmayıb, artıq liderlərin dediyi kimi, Xankəndidə Azərbaycan bayrağı dalğalanır. Ümumilikdə cənab Ərdoğanın növbəti Şuşa səfərindən, qala şəhərdə gözlənilən Türk Zirvəzindən nələr gözləyək?

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru, hüquqşünas Sahib Məmmədov "Yeni Müsavat"a bildirdi ki, Türkiyə nəinki regional, həm də qlobal səviyyədə proseslərə təsir imkanı olan güclü dövlətlərdən biridir:** "Bu baxımdan Türkiyə prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın müxtəlif formatlı beynəlxalq təşkilatların tədbirlərində iştirakı, həmin tədbirlərin təşkilatçıları, həmçinin Türkiyə üçün faydalıdır. Onun Şanxay Əməkdaşlıq Təşkilatının Dövlət və Hökumət Başçılarının zirvə toplantısında iştirakı da bu baxımdan əhəmiyyətli hesab olunmalıdır. Türkiyə bu təşkilata üzv olmasa da, həmin təşkilatın dialoq tərəfdaşıdır".

**S.Məmmədov qeyd etdi ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısının mədəniyyət paytaxtımız Şuşa şəhərində keçirilməsi də olduqca əhəmiyyətlidir**: "Şuşa həm də birlik simvoluna çevrilməkdədir. Şuşada Türkiyə Respublikasının konsulluğunun açılması həm realdır, həm də vacibdir. Bunun siyasi əhəmiyyəti ilə yanaşı, praktiki əhəmiyyəti də var. Belə ki, hazırda ərazilərdə tikinti, bərpa və abadlıq işlərində çoxsaylı Türkiyə şirkətləri və Türkiyə vətəndaşları çalışır. Gələcəkdə işğaldan azad edilmiş ərazilərdə də Türkiyə iş adamlarının fəaliyyəti geniş olacaq. Konsul xidmətinin təşkili onlar üçün də əhəmiyyətli olacaq, bununla belə, mən işğaldan azad edilmiş ərazilərdə, xüsusən Şuşada qardaş ölkənin konsulluğunun açılmasının həm də simvolik məna daşıdığını düşünürəm. İki dövlət arasında müttəfiqlik müqaviləsi də Şuşada imzalanıb".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın bu ay üçün qrafikinin çox gərgin olduğunu bildirdi**: "Türkiyə xarici siyasət və təhlükəsizlik məsələləri son vaxtlar xeyli aktuallaşıb. Yeni xarici işlər naziri nəzəri biliklərlə özünü hər zaman göstərə bilən Hakan Fidan da müxtəlif istiqamətlərdə fəallığını artırıb. Azərbaycana, Şuşaya səfər olacaq, bu, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi toplantısıdır. Azərbaycan özü bu toplantıya bir neçə cəhətdən ciddi əhəmiyyət verir. Birinci səbəb odur ki, belə bir mötəbər tədbir azad olunan Şuşada keçirilir. Bu, həm də Türk dövlətlərinin Azərbaycana dəstəyini ifadə edir. Digər tərəfdən, Azərbaycan türk dövlətlərinin inteqrasiyasında son dərəcədə maraqlıdır. Azərbaycan və Türkiyə bu inteqrasiyanın nüvəsini təşkil edir. Çalışırlar ki, Mərkəzi Asiyanın türk dövlətləri də inteqrasiya istiqamətində fəallığı-nı artırsın".

**E.Şahinoğlu üçüncü mühüm hadisəyə də diqqət çəkərək bildirdi ki, TDT-nin Şuşa toplantısına Quzey Kıprıs Türk Cümhuriyyətinin prezidenti Ersin Tatar da Azərbaycanın dəvəti əsasında qatılacaq**: "Əvvəl də Azərbaycana səfər etmişdi və İlham Əliyevlə görüşü olmuşdu. Bu, ondan xəbər verir ki, Azərbaycan Quzey Kıprıs Türk Cümhuriyyətinin Türk ailəsinə qatılmasını, Türk Dövlətləri Təşkilatına üzv olmasını istəyir. Bu məsələ Türkiyə və Azərbaycanın istəyindən asılı deyil. Gərək buna Mərkəzi Asiyanın türk dövlətləri də razılıq versin. Ola bilsin indi hələ də bu razılıq olmasın. Yaxın gələcəkdə bu məsələnin müsbət həll olunacağına inanmaq olar. Üstəgəl, yaxın gələcəkdə Azərbaycanın da Quzey Kıprısın müstəqilliyinin tanınması mümkündür. Keçmişdə bu, ona görə baş vermirdi ki, bizim Qarabağ problemi var idi, müəyyən ölkələrin şantajına məruz qala bilərdik. İndi Allaha şükür, bu problemi də həll etmişik".

**Politoloq Məhəmməd Əsədullazadə isə qeyd etdi ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsini regional ölkədən beynəlxalq müstəvidə həlledici rol oynayan bir ölkəyə çevirmək yolundadır**: "Bu istiqamətdə Türkiyə kifayət qədər uğurlu yol qət edib. İstər Qərblə, istərsə də Şərqlə balanslaşdırılmış və müstəqil siyasət aparmaqla Ankara Cənubi Qafqazda, Yaxın Şərqdə və Mərkəzi Asiyada həlledici mövqe tutub. Xüsusilə də Türkiyə Türk Dövlətləri Təşkilatının formalaşmasında Azərbaycanla koordinasiyalı fəaliyyət göstərir. ABŞ, Rusiya, Avropa İttifaqı və Çin Türkiyənin artan nüfuzu ilə hesablaşır və beynəlxalq müstəvidə Ankaranın vasitəçiliyini qəbul edirlər. Bu, cənab Ərdoğanın qətiyyətli və prinsipial siyasətinin nəticəsidir. Artıq Türk dövlətləri inkişaf edir".

**M.Əsədullazadə bu fikirdədir ki, Şuşada keçiriləcək Türk dövlətlərinin zirvə görüşü, cənab Ərdoğanın Şuşaya növbəti səfəri və buradan verəcəyi mesajlar həm də regionda maraqlı olan ölkələrə mesaj olacaq**: "Xüsusilə Fransanın Cənubi Qafqazda militarist siyasət aparması, Ermənistanı silahlandırması sülhə mane olur. Susa Qafqazın sülh şəhəridir və regional əhəmiyyətli şəhər statusu alır. Buradan veriləcək mesajlar Cənubi Qafqazda siyasi nizamın hansı istiqamətdə davam edəcəyini göstərəcək. Cənab Ərdoğanın Şuşaya səfəri siyasi cəhətdən xüsusi diqqət mərkəzində olacaq. Ermənistan, İran, Rusiya və Fransa mesajlarını alacaq. Türkiyənin Türk dövlətləri təşkilatını daha da inkişaf etdirib, beynəlxalq müstəvidə yeni bir güclü təşkilata çevrilməsi yolunda addımlar atılacağı mesajını verəcək. Mərkəzi Asiya türk dövlətləri ilə Qərb əməkdaşlıq etmək istəyir. Bu ölkələr də Türkiyə ilə birgə eyni təşkilatdadır və prosesdə eyni addımlar atacaq. Buradan da görünür ki, Qərb və Rusiya Türkiyə ilə hesablaşmalı olacaq. Şuşa şəhəri bir növ dünya siyasətinə yön verəcək bir şəhər statusu alır. 30 il işğalın altında olan, vəkalət müharibəsinin əsirinə çevrilən Şuşa qərarlar verilən bir şəhərə çevrilib. Buradan verilən qərarlar və cənab Ərdoğanın mesajları Ermənistanda soyuq küləklər və psixoloji sarsıntı yaradacaq".

❑ E.PAŞASOY,
"Yeni Müsavat"



## Ankara Türkiyə və Ermənistan nümayəndələrinin görüşündən imtina edib

**Ankara Türkiyə və Ermənistan nümayəndələrinin iyulun 2-nə planlaşdırılan görüşündən imtina edib.**

APA xəbər verir ki, bu barədə News.am məlumatlı diplomatik mənbəyə istinadən məlumat yayıb.

Daha əvvəl bildirilmişdi ki, Ermənistan və Türkiyə nümayəndələri iyulun 2-də görüş keçirəcəklər.

Görüşün Ermənistan-Türkiyə sərhədində, "Marqara" keçid məntəqəsinin ərazisində planlaşdırıldığı qeyd olunurdu.

Yeni Müsavat
N 112 (8485) 2 iyul 2024

# Tikinti şirkətlərinin, yoxsa mülkiyyətin toxunulmazlığı

## MMC-lər konstitusiyanı, məhkəmələri saymır; vətəndaşlar narazı salınır, yaşıllıqlar məhv edilir

**Son vaxtlar Bakıda mülkiyyət hüquqlarının pozulması hallarını əks etdirən videolar, şikayətlər çoxalıb. Tikinti şirkətləri şəhərin mərkəzində köhnə binaları, onların ətrafındakı fərdi evləri söküb "göydələn"lər ucaldıblar. Bu prosesdə mülkiyyət hüquqlarının pozulması halları, ciddi narazılıqlar yaradılması müşahidə edilir. Hazırda Bakının mərkəzində - Yasamalda, Nəsimi rayonu Mirqasımov küçəsində, "Kubinka" deyilən ərazidə binalar tikən "Pilot", "İnvest Construction" MMC-lər vətəndaşlarla anlaşmadan, onları razı salmadan mülklərini başlarına uçururlar. Konstitusiyada təsbit olunan mənzil toxunulmazlığı, mülkiyyət hüquqları faktiki ayaqlar altına atılır, məhkəmə qərarlarını sayan da yoxdur. Belə şikayətlər onlarladır. Habelə, tikinti şirkətləri Bakının mərkəzindəki azsaylı yaşıllıqları da məhv edirlər. Məsələn, "İnvest Construction" Mirqasımov, Xan Şuşinski küçələrinin kəsişməsindəki 150-dən çox irigövdəli ağacı məhv edib. Bura sovetlər dövründən "Yaşıl vadi" kimi tanınırdı. İndi həmin yer Suriyanı xatırladır...**



Paytaxtın digər ərazilərində də söküntülər yenidən aktivləşib, çoxsaylı layihələrin icrasına başlanıb. Bəzi mənbələr bütün işlərin Bakının Baş Planına əsasən icra olunduğunu deyirlər. Bura ilk növbədə dəniz sahili boyu - Əhmədli qəsəbəsi də daxil olmaqla, sıx inşa olunmuş fərdi evlərin sökülərək yerində bulvarın salınması aiddir. Bu prosesin 2030-cu ilədək yekunlaşdırılması nəzərdə tutulur. Həmin ərazidə minlərlə sənədsiz evlərin tikildiyini, 20 ilə yaxındır mövcud olduğunu nəzərə aldıqda, söküntülərin yenidən əhali ilə dövlət qurumları arasında narazılıqlara gətirib çıxarması ehtimalının yüksək olduğunu söyləmək olar. Məsələ burasındadır ki, söküntü aparılan ərazilərdə mənzillərə, fərdi evlərə görə kompensasiyanı müəyyən edən konkret hüquqi sənəd yoxdur. Davam edən söküntü-tikinti işləri əsasən 2016-cı ildən başlanan Pilot layihələrlə əsaslandırılır. Xatırladaq ki, 2016-cı ilin fevralında Nazirlər Kabineti 86 saylı qərar qəbul edib. Qərara əsasən Bakı və ölkənin digər şəhərlərində köhnə, istismar müddəti bitmiş binaların sökülərək yerində yeni və çoxmərtəbəli binalar tikilməsini nəzərdə tutan pilot layihələrin icra olunması nəzərdə tutulurdu. Bu layihələr mülkü, mənzil, şəhərsalma və tikinti qanunvericiliklərinin tələblərinə əməl etməklə, şəhərin ümumi görünüşünə xələl gətirən, qəzalı vəziyyətdə və mövcud şəhərsalma normalarına cavab verməyən Suraxanı rayonu üzrə 3828 nəfərin yaşadığı, 1127 mənzildən ibarət olan uzunmüddətli istismar nəticəsində yararsız vəziyyətə düşmüş 63 yaşayış binasının, Nəsimi rayonu üzrə XIX əsrin sonları və ötən əsrin əvvəllərində tikilmiş, 16206 nəfərin yaşadığı 5771 mənzildən ibarət 226 yaşayış binasının, Xətai rayonu üzrə 6956 nəfərin yaşadığı 2016 mənzildən ibarət 99 yaşayış binasının, Nərimanov rayonu üzrə 11031 nəfərin yaşadığı 3028 mənzildən ibarət 219 yaşayış binasının, Nizami rayonu üzrə keçən əsrin 50-60-cı illərində inşa edilmiş, 5395 nəfərin yaşadığı 1779 mənzildən ibarət 131 yaşayış binasının, Yasamal rayonu üzrə 1257 nəfərin yaşadığı 427 mənzildən ibarət 18 yaşayış binasının, Səbayel rayonu üzrə 1819 nəfərin yaşadığı 535 mənzildən ibarət 41 yaşayış binasının, Pirallahı rayonu üzrə 3131 nəfərin yaşadığı 1174 mənzildən ibarət 297 yaşayış binasının sökülərək yerində yenilərinin inşa olunmasını əhatə edəcəkdi. Layihələr üzrə tikintiyə icazə almaq asanlaşdırılmışdı: tikintiyə icazəni birbaşa rayonun icra hakimiyyəti verirdi. Qərardan dərhal sonra Bakının əksər rayonlarında kütləvi söküntülər başladılsa da, 2018-ci ildən etibarən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tikinti normalarına nəzarəti gücləndirməsi prosesin minimum səviyyəyə qədər yavaşımasına səbəb oldu. 2019-cu ilin dekabrında Nazirlər Kabineti, ümumiyyətlə, pilot layihələrin icrasını dayandıran addım atdı: 2016-cı ildə qəbul etdiyi 86 saylı qərarını ləğv etdi. Ona qədər tikinti layihələrinə icazə alan şirkətlərin bir çoxu işləri davam etdirir, hətta layihələrin icrasına 2023-cü ildə başlayanlar da var.

Paytaxtdakı söküntü prosesində ən çox müzakirə olunan, vətəndaşların kütləvi narazılığına səbəb olan məsələ sökülən mənzillərin dəyəri ilə bağlıdır. Belə ki, 2010-cu illərin əvvəllərində keçmiş "Sovetski", "Kubinka" ərazilərində qış bulvarının yaradılmasını nəzərdə tutan və dövlət sifarişi ilə həyata keçirilən layihələrin icra zonasına düşən evlərin hər kvadratmetrinə görə ödənişin yuxarı həddi Nazirlər Kabineti tərəfindən 1500 manat müəyyən olunmuşdu. Bir çox sakinlər bu məbləğlə razılaşmasalar da, qərar dəyişmədi.

Lakin sonradan Bakıda özəl şirkətlər pilot layihələr çərçivəsində layihələndirdikləri tikinti işlərində də 1500 manat prinsipini tətbiq etməyə başladılar. Bu zaman Nazirlər Kabinetinin 86 saylı qərarına istinad olunur. Halbuki həmin qərarda konkret məbləğ göstərilməmişdi. Qərara əsasən layihəyə düşərək sökülən binaların sakinləri o binaların yerində tikiləcək binalarda öz mənzillərindən 20 faiz daha böyük mənzil ala, yaxud mənzillərinin bazar dəyəri məbləğində ödəniş tələb edə bilərdilər. Yeni binadan mənzil almaqla razılaşan sakinlər bina hazır olanadək tikinti şirkətinin hesabına kirayədə qalırdılar. Yeni binadan mənzil istəməyən sakinlərlə tikinti şirkətləri arasında mənzilin dəyəri ilə bağlı yüzlərlə məhkəmə çəkişmələri hələ də davam edir. Bu çəkişmələrin əksəriyyətindən aydın olur ki, şirkətlər 12-13 il əvvəl yalnız bir ərazi üçün və dövlət ehtiyaclarına alınması nəzərdə tutulan mənzillər üçün müəyyən olunan 1 kv.metrə 1500 manatlıq ödəniş prinsipini zorla pilot layihələr çərçivəsində sökülən binaların sakinlərinə tətbiq etməyə çalışırlar. Və bu proses hələ də davam edir.

Tikinti şirkətinin sakinlərə hüquqi əsas olmadan 1500 manat təklif etməsi haqlı olaraq vətəndaşların narazılığına səbəb olur. Bu narazılıqlar məhkəmə müstəvisində çəkişilir, tikinti şirkətləri hüquqi əsas olmasa belə, prosesdən qalib çıxardılır, daha sonra vətəndaşlar kütləvi şəkildə Avropa Məhkəməsinə üz tuturlar. Bu isə ölkəmizə qarşı məhkəmə qərarlarının sayında böyük artıma gətirir, mənfi statistika dövlətin nüfuzuna zərbə vurur.

Bir çox hallarda tikinti şirkətləri bu addımlarını sakinlərin öz mənzillərinə görə real bazar qiymətindən çox yüksək məbləğ istədikləri ilə əsaslandırmağa çalışırlar. Və bu iddiaların bəzilərində reallıq var: bəzən vətəndaşlar ərazidəki bazar qiymətlərini nəzərə almadan öz mənzillərinə dəyərindən dəfələrlə yüksək qiymət tələb edirlər. Lakin bu, heç də tikinti şirkətlərinə sakinləri zorla evlərindən çıxarmaq hüququ vermir. Bugünlərdə sosial şəbəkələrdə Bakıda bir qadının evinin gecə saatlarında uçurdulması, özünün zorla kənara çıxarılmasını əks etdirən videokadrlar ciddi müzakirələrə səbəb olmuşdu...

Bütün bunlar göstərir ki, hazırda Azərbaycanda daşınmaz əmlaka görə təzminatın hesablanması, əmlakın obyektiv qiymətləndirilməsi sahəsində ciddi problemlər var.

**Hüquqşünas Əkrəm Həsənovun "Yeni Müsavat"a dediyinə görə, baş verənlər tamamilə qanunsuzdur:** "Bu, tikinti şirkətləri ilə dövlət orqanlarında çalışan bəzi vicdansız məmurların işbirliyinin nəticəsidir. Qanun yalnız bir halda vətəndaşın öz razılığı olmadan evindən çıxarılmasına imkan verir: ərazi dövlət ehtiyacı üçün alındıqda. Bu zaman da məhkəmənin qərarı olmalıdır vətəndaşın evindən çıxarılmasına dair. Dövlət ehtiyacları müxtəlif ola bilər: yol, kommunal xətt çəkilməsi, park salınması və sair. Son vaxtlar dövlət ehtiyacları üçün torpaq alınması halları çox nadir olur. Belə bir iddia irəli sürürlər ki, binaların istismar müddəti bitib, sökülməlidir. Bakının əksər binalarının istismar müddəti bitib, köhnəlib, ona qalsa, gərək hamısı sökülə. Sadəcə, hansısa tikinti şirkətinin bir əraziyə gözü düşür, orada bina tikib pul qazanmaq istəyir. İstəyini icra strukturları, dövlət qurumları ilə razılaşdırır. Dövlət orqanından da deyirlər ki, biz razı, get ərazidə məskunlaşan vətəndaşlarla danış, razılıqlarını al. Bu zaman başlayırlar söz buraxmağa ki, ərazi plana düşüb, bina, yaxud fərdi ev dövlət ehtiyacı üçün alınır. Bəzi hallarda hətta hansısa tikinti şirkətinə icra hakimiyyətindən razılıq sənədi də verilir. Bu sənədlər tam qanunsuzdur! Çünki ərazidəki evlər sakinlərin xüsusi mülkiyyətidir, reyestrdə qeydiyyatdan keçirilmiş tam qanuni mülkiyyəti. İcra hakimiyyətinin hər hansı formada vətəndaşın mülkiyyətində olan ərazi üçün razılıq sənədi vermək hüququ yoxdur. Lakin onlar bunu edirlər və tikinti şirkətləri də həmin sənədlə gedir vətəndaşın üstünə. Kimlərsə razılaşır, kimlərsə yox. Onda tikinti şirkəti başlayır hədə-qorxu, təzyiq mexanizmini işə salmağa. Bir çox hallarda məhkəmələri də prosesə cəlb edərək, heç də qanuni olmayan köçürülmə qərarları alırlar".

**Mütəxəssis bildirir ki, vətəndaş razılıq vermədiyi müddətdə onun evinin sökülməsi hüquqi baxımdan mümkün deyil:** "Azərbaycan qanunvericiliyi vətəndaşın razılığı olmadan onun evini sökməyi qadağan edir. Lakin təəssüf ki, bu müddəa çox zaman işləmir. Daha doğrusu, tikinti şirkətləri ilə bəzi məmurların işbirliyi imkan vermir buna. Başqa tərəfdən, bir çox hallarda tikinti şirkətləri hansısa ərazidə bina tikməyə hazırlaşırlar, lakin bu tikintini maliyyələşdirməyə investisiya ehtiyatı yoxdur. Onlar ərazidə işə başlayır, reklam edir, hələ tikiləcək evə görə vətəndaşlardan pul alır, yalnız bundan sonra tikintiyə başlaya bilirlər. Bir çox hallarda işi sona çatdırmağa vəsaitləri çatmır, insanlar illərlə pulunu verdikləri evlərə köçə bilmirlər. Əslində şirkətlərin tikinti layihələrinə icazə verilməsi üçün maliyyə imkanlarına dair tələb qoyulmalıdır. Bir ərazidə tikintini ən azı 50 faiz tamamlamağa imkanı olmayan şirkətin layihəsinə icazə verilməməlidir. Təəssüf ki, bu sahədə hüquqi boşluq olduğuna görə vətəndaşlar əziyyət çəkirlər".

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 112(8485) 2 iyul 2024

# Abituriyentlərin həyəcanlı həftələri başladı - imtahanlardan gözləntilər

**Kamran Əsədov:** “Bu il rekord sayda plan yeri olacaq, keçid balı isə...”
**Adil Vəliyev:** “Sualların çətinlik dərəcəsinin abituriyentlərdə çaşqınlıq yarada biləcəyini düşünmürəm, çünki...”
**Rövşən Nəcəfov:** “İmtahandan əvvəl və ya sonra abituriyentlərə qınaq və qərəz ifadə etmək olmaz”

**İyulun 7-də və 14-də qəbul imtahanlarının ikinci cəhdi baş tutacaq. 2 və 3-cü qruplar iyulun 7-də, 1 və 4-cü qrup üzrə hazırlaşanlar iyulun 14-də ikinci cəhd imtahan verəcəklər. Bu, abituriyentlərin ali məktəbə qəbul olmaq üçün son şans imtahanıdır. Birinci cəhd imtahanlar kifayət qədər çətin olub və bu səbəbdən abituriyentlər ikinci cəhdə ümid bəsləyirlər.**



Bu imtahan da ağır olarsa, suallar çaşdırıcı və çətin olarsa, abituriyentərlərin durumu necə olacaq?

**Təhsil eksperti Kamran Əsədov mövzunu “Yeni Müsavat” üçün belə şərh edib:** “İlk növbədə qeyd edim ki, may ayında keçirilən 1-ci cəhd imtahanlarından sonra aparılan ilkin tədqiqatlar əsasında deyə bilərik ki, sualların faiz nisbəti əslində 30% asan suallar, eyni zamanda 40 % orta və 30 % çətin suallar olmalı idi. Amma burada balans məsələsində çətin sualların sayı ümumi test tapşırıqlarının 40%-ə qədər olduğu, asan sualların isə ümumi sualların cəmi 25%-ni təşkil etdiyini gördük. Xüsusən I ixtisas qrupunda riyaziyyatdan çətin suallar say çoxluğu təşkil edirdi. Orada müxtəlif tənliklərin həlli vaxt aparırdı. Məhv bunun nəticəsi idi ki, 3 və 10 martda keçirilən buraxılış imtahanlarında 54 nəfər maksimum-300 bal toplamasına baxmayaraq, I cəhd imtahanında bu nəticə olmadı. Yalnız 1 nəfər 700 bal topladı ki, bu da 1-ci cəhd imtahanlarının çətin olduğunu göstərdi. İmtahan prosesini ayrı-ayrı təhlil etsək, sualların çətin olduğunu görə biləcəyik. Belə ki, 26 mayda keçirilən 2-ci qrup üzrə imtahanı təhlil etdim. Bu imtahanda coğrafiya fənnindən düşən suallar, məncə, çətin idi. Coğrafiyada 14 dənə uyğunlaşdırma sualı düşmüşdü. Bu uyğunlaşdırma sualları şagirdlərin çox vaxtını alırdı. Bu, məncə, çox problemli bir şeydir. Həm də ki mövzular, yeni suallar ədalətsiz paylanmışdı. Bir mövzudan, misal üçün, koordinat məsələlərindən 4 sual düşmüşdü, digər mövzulardan sual yox və ya az idi.

Sualların təhlili göstərir ki, orada olimpiada sualları var idi. MİQ imtahanlarında istifadə olunan suallar idi və çətin hesab oluna bilərdi. Həmçinin 3-cü ixtisas qrupu üzrə tarix fənnindən təqdim edilmiş test tapşırıqları kifayət qədər daha yüksək hazırlıqlı abituriyent üçün suallar idi və çətin hesab oluna bilərdi. Ümumilikdə qeyd edim ki, bu test tapşırıqlarını yazanda müəlliflərin qarşılarında kitab olur və onlar rahatlıqla həmin sualları yaza bilir. Amma sualları cavablandıran abituriyentlər suallara cavab verdikdə onların qabaqlarında kitab olmur, onlar müəyyən vaxt ərzində müxtəlif fənndən cavab vermiş olurlar. Ona görə də biz imtahan suallarını çətin hesab edirik və aparılan təhlillər göstərir ki, cari ilin məzunları 1-ci imtahanda o qədər də yaxşı nəticə toplamayıblar".

**Ekspert sualların asan olmasının tərəfdarı olduğunu vurğuladı:** “Çünki bir ixtisas üzrə, məsələn, 180-200 balla qəbul olmaq ictimaiyyətdə həmin ixtisasın səviyyəsinin və dəyərinin aşağı düşməsinə gətirib çıxarır. Amma suallar asan olduğu, ballar qalxdığı təqdirdə həmin o 220 ballıq ixtisas gəlib 350 bala qalxacaq. Bir növ həmin ixtisasın dəyəri də yüksəlmiş olacaq.

Bir məqamı qeyd edim ki, keçid balını həmin il imtahan verən abituriyentlərin ümumi göstəricisi müəyyən edir. Bu konkret bir düsturdur. Keçid balının alınması üçün lazım olan düsturun əsas tərəfi qəbul imtahanlarına qatılan şəxslərin topladığı baldır.

Bu il keçirilən buraxılış imtahanlarının nəticələri bunu deməyə əsas verir ki, abituriyentlərin topladığı ballar ötən ilə nisbətən daha yaxşı olacaq. Amma bu göstəricilərin ixtisaslar üzrə keçid balına necə təsir edəcəyi tamamilə fərqli mövzudur. Çünki keçid balını təkcə abituriyentlərin nəticələri deyil, həm də ixtisaslar üzrə ayrılan plan yerləri müəyyən edir.

Plan yerlərindəki artıma əsasən, balların azalma, yaxud çoxalma ehtimalını göz önünə gətirə bilərik".

**K.Əsədov qeyd etdi ki, bu il Azərbaycanda rekord sayda plan yeri olacaq:** “Ötən il bu rekord yenilənmişdi və plan yerləri bir xeyli artırılmışdı. Göstəricilərin artması rəqabəti yüksəltsə də, keçid ballarında kəskin dəyişiklik olacağı gözlənilmir”.

**Təhsil eksperti Adil Vəliyev isə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu il qəbul imtahanlarında suallar o qədər də çətin olmadı:** “Bu il yüksək bal toplayanların sayı keçən il yüksək bal toplayanların sayından qat-qat artıqdır. Dövlət İmtahan Mərkəzinin (DİM) açıqladığı statistika da bunu göstərir. İstər kurslarda, istərsə də fərdi müəllim yanına hazırlığa gedən abituriyentlərin statistikasını öyrənəndə görürük ki, istər hazırlığa gedən, istərsə də hazırlığa getməyən kifayət qədər abituriyent var ki, onlar ikinci qəbul imtahanında iştirak etmək istəmirlər. Bu onu göstərir ki, ilk imtahan o qədər də çətin keçməyib. Sualların çətinlik dərəcəsinin abituriyentlərdə çaşqınlıq yarada biləcəyini düşünmürəm. Çünki bu sualları yüksək və orta bal toplayanlar da cavablayır. Bəzən elə olur ki, 400 bal toplayan bir sualı düzgün cavablayır, 600 bal toplayan isə səhv yazır. İstər asan olsun, istərsə də çətin, abituriyentlər sualları diqqətlə oxumalı, lazım gəlsə, dəfələrlə oxumalıdır ki, başa düşsün və cavablandırsın”.

Qəbul imtahanlarının abituriyentlərin psixoloji vəziyyətinə təsirini isə psixoloqlarla dəyərləndirdik.

**Klinik psixoloq, psixoterapevt Rövşən Nəcəfov “Yeni Müsavat”a açıqlamasında özünəinam hissinə diqqət çəkdi:** “Həyatda da belədir ki, heç bir sual cavabsız deyil. Abituriyentlər imtahanlardan qorxmasınlar. Nəticənin nə olmağından asılı olmayaraq, özlərinə inamını itirməsinlər. Səhvlər insanı daha güclü edir. Yüksək bal toplamaq bilik göstəricisi deyil, biliyin insan həyatında hansı addım atmasının göstəricisidir. Çətin sual yoxdur, düzgün cavab çətin sualı asanlaşdırır. Abituriyentlər etdikləri səhvlərdən özlərinə dərs çıxarmalıdırlar. Hər kəs ali məktəbə qəbul olacaq deyə bir anlayış yoxdur. Rəqabət var və rəqabətədavamlı əzm tələb olunur. Nə olursa-olsun ali məktəbə qəbul olum prinsipi ilə imtahana getmək doğru deyil. Dörd il sonra diplomlu işsiz yetişməməlidir. Sevəcəkləri sahələrə yönlənməlidirlər. Valideynlər də övladlarına bu istiqamətdə dəstək olmalıdır. Yüksək bal hədəfləyib yola çıxan abituriyentlər daha yaxşı nəticələr göstərirlər. Ali məktəblər üçün təyin olunmuş imtahanlar müqayisə forması daşıyır, münaqişə deyil. İmtahana şübhəli biliklərlə getmək həyəcan yaradır. Ətrafdakıların da gözləntiləri həyəcanın səviyyəsini artırır. Həyəcanı idarəolunmaz şəxslər peşəkar dəstək almalıdırlar. Ehtiyac yaranarsa, imtahandan əvvəl və sonra abituriyentlər psixi sağlamlıq mütəxəssislərinə müraciət etməlidirlər. Baş verəcək mənfi hadisələrin qarşısını almaq olar”.

**R.Nəcəfovun fikrincə, böyük nəticələri süni şəkildə böyütmək doğru deyil:** “Heç bir ixtisas, heç bir ali məktəb insanın canından artıq deyil. İmtahanlar əziyyətin ifadəsidir. Həyatda da belədir. Əziyyət çəkən və əzm göstərən şəxslərin nəticələri də böyük olur. Bütün sahələrdə əziyyət və əzm tələb olunur. İmtahandakı böyük nəticələri süni şəkildə böyütmək olmaz. Yüksək bal toplayanlardan "xalxın uşağı" obrazı yaratmaq lazım deyil. Abituriyentlərə təzyiq etməklə, onlara ilk olaraq özlərinə, daha sonra başqalarına qarşı nifrət qidası verilmiş olur. Valideynlər övladlarına qarşı diqqətli olmalıdırlar. Heç bir imtahan həyatın imtahanından ağır deyil. Ali təhsil almaq istəməyən övladın başqa sahələrə üz tutmasına dəstək olmaq lazımdır. “Diplom almaq” anlayışı əhəmiyyətsizdir. Hər kəsin peşəsi olmalıdır, amma hər kəsin diplomu olmalıdır anlayışı meyar deyil. İnsan gələcəkdə sevdiyi, daha sonra isə bacardığı sahədə uğurlu olur. Problem ali məktəb diplomuna yüklənən mənadadır. Düşüncə dəyişməlidir. Düşüncə dəyişdiyi halda insanın həyatı dəyişir. Valideynlər və övladlar arasında dialoq olmalıdır. Abituriyentlər imtahana gedəndə sualların ağırlığı, çaşdırıcılığı və çətinliyi haqqında yox, onları necə cavablamaq haqqında düşünməlidirlər. Həyəcan məsuliyyətin göstəricisidir. Məsuliyyət ancaq şəxsin özünə məxsusdur. Həyəcan təşvişə və ya digər hansısa psixoloji pozuntuya səbəb olmamalıdır. İmtahandan əvvəl və ya imtahandan sonra abituriyentlərə qınaq və qərəz ifadə etmək olmaz. Sağlam gələcək üçün sağlam düşüncə formalaşmalıdır".

**Psixoloq Vəfa Rəşidova “Yeni Müsavat”a bildirdi ki, abituriyent proses bitənə qədər stressli, gərgin olur. O vurğuladı ki, bunu nəzərə alaraq, abituriyentlərə şans verilməsini düşünmək olar:** “Əgər ikinci cəhddə də çətinlik olsa, hesab edirəm ki, bu abituriyentin üzərinə düşən məsuliyyətlərdən qaynaqlanır. Abituriyent də diqqətli olmalı, məsuliyyət daşımalıdır, biliyini bacardıqca artırmalıdır ki, ikinci şansı dəyərləndirsin. Qəbul imtahanında müvafiq balı toplaya bilməmək təkcə abituriyentlərə yox, valideynlərə də, müəllimlərə də təsir edir”.

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 112 (8485) 2 iyul 2024

# Bitməyən Qəzza və Ukrayna savaşı - Tramp seçilsə, müharibə dayanacaq, yoxsa...

**ABŞ-ın hazırkı prezidenti və Demokratların prezidentliyə namizədi Co Baydenin reytinqi sürətlə aşağı enir. Respublikaçıların namizədi, sabiq prezident Donald Trampın isə nüfuzu artır. ABŞ cəmiyyəti prezidentliyə iddialı Donald Trampı dəstəkləyir.**

Belə ki, ABŞ-ın keçmiş və indiki prezidentləri arasında keçirilmiş ilk teledebat məhz Donald Trampın siyasi üstünlüyü ilə sona çatıb. Keçirilmiş ictimai rəy sorğularında isə Donald Tramp seçicilərin 67 faizinin dəstəyini öz arxasına almış kimi görünür. Donald Trampla debatda mövzuları normal arqumentlərlə izah edə bilməyən, hətta tez-tez nitq problemləri ilə diqqəti çəkən prezident Co Baydenin ictimai rəydə nüfuzu sürətlə aşağıya doğru yuvarlanır.

## Siyasi şərhçi: “Bayden siyasətindən bu məsələlərdə müsbət bir nəticə olmayacağı hər kəsə aydındır”



Siyasi analitiklər hesab edir ki, indi prezidentliyə namizədlik məsələsində hələ də inadkarlıq edən Co Baydenin seçkidə qələbəsinə onun özündən başqa heç kim inanmır. Hətta Bayden ailəsində belə ciddi tərəddüdlər hökm sürür. Panik durumda olan demokratlar isə vəziyyətdən çıxış yolu axtarmağa başlayıblar. Demokratlar Partiyasının Co Baydenin əvəzinə yeni prezidentliyə namizəd irəli sürməsi üçün isə variantlar o qədər də çox deyil.

Belə ki, ən optimal variant Co Baydenin özünün könüllü şəkildə seçkidən çəkilməsidir. Buna hələlik razılaşmayan Co Bayden Demokratları ikinci xoşagəlməz varianta yönəlmək məcburiyyətində buraxa bilər. Yəni Co Bayden partiya sıralarından kənarlaşdırılacağı təqdirdə, Demokratlar yeni prezidentliyə namizəd irəli sürmək hüququ qazanacaq. Və digər uğurlu alternativ namizədin də hələlik olmaması demokratların, ümumiyyətlə, əlini-qolunu bağlamış kimi görünür.

**Siyasi ekspert Elçin Xalidbəyli**nin fikrincə, belə anlaşılır ki, artıq ciddi şəkildə parçalanmış ABŞ cəmiyyəti “Bayden faciəsi” yaşayır. Belə ki, qoca Co öz siyasi yetərsizliyi ilə ABŞ cəmiyyətini Donald Trampı prezident seçməyə məhkum edib. Hətta hazırda elə bir vəziyyət yaranıb ki, Donald Tramp seçki başlamadan belə, onun qalibi hesab olunur. Və bu, o deməkdir ki, həm ABŞ-da, həm də Avropada bundan narahat olanlar istəməsələr belə, Donald Tramp dönəminə hazırlaşmaq məcburiyyətində qalıb.

ABŞ növbəti prezidentini seçməyə hazırlaşdığı vaxtda Rusiya-Ukrayna müharibəsi, Qəzzada İsrail-HƏMAS savaşı davam edir. Və hər iki müharibənin yaxın aylarda bitməyəcəyi görünür.

Qəzza zolağında savaş bitmir və bu prosesin sonu görünmür. İsrail hərbçilərinin 2023-cü ilin oktyabr ayından bu anklavda hərbi əməliyyatlara başladığı vaxtdan Qəzzada keçirdiyi əməliyyatlar nəticəsində təxminən 37,9 min insan həlak olub, 87 minə yaxın insan isə yaralanıb.

Fələstin sektorunun Səhiyyə Nazirliyi bu məlumatları rəsmi Telegram kanalında verib.

“İsrailin Qəzza zolağında keçirdiyi əməliyyatların qurbanlarının sayı bu gün 37 877 nəfərə çatıb”, - departament bildirib.

Onun sözlərinə görə, 2023-cü ilin oktyabrından indiyədək anklavda 86 969 nəfər xəsarət alıb. Səhiyyə Nazirliyi əlavə edib ki, son 24 saat ərzində İsrail qüvvələrinin Qəzzanın müxtəlif bölgələrini atəşə tutması və hava hücumları nəticəsində 43 fələstinli ölüb, 111 nəfər isə yaralanıb.

“İsrail ABŞ prezidenti Co Baydenin təklif etdiyi, Qəzza zolağında atəşkəs və orada saxlanılan girovların azad edilməsini nəzərdə tutan plana sadiq qalır”. Bunu Yəhudi Dövlətinin Baş naziri Benyamin Netanyahu deyib və onun həyata keçirilməsinə bütün maneələrin Fələstinin radikal HƏMAS hərəkatı tərəfindən yaradıldığı fikrini ifadə edib.

“Girovlarımızı azad etmək kimi müqəddəs missiyaya gəlincə, İsrailin prezident Baydenin dəstəklədiyi azad etmə planı ilə bağlı mövqeyində heç bir dəyişiklik yoxdur. Bu gün hamı sadə bir həqiqəti bilir: girovlarımızın azad edilməsinin yeganə maneə HƏMAS-dır. Diplomatik və hərbi təzyiqləri birləşdirərək, onların hamısını - 120 girovu geri qaytaracağıq. Həm diriləri, həm də ölüləri”, - deyə Netanyahu Nazirlər Kabinetinin həftəlik iclasında bildirib.

Görünən budur ki, İsrailin Qəzzada müharibəni dayandırmaq niyyəti yoxdur və o da sirr deyil ki, Bayden administrasiyası savaşın dayandırılmasına səy göstərmir. Bu gedişatın Donald Trampın ABŞ prezidenti olacağı halda dəyişəcəyi haqda proqnozlar verilir. Onun həm Ukrayna, həm Qəzzada antimüharibə ssenariləri işə salacağı haqda müəyyən gözləntilər var. Bu, seçkiqabağı vəd, texnologiyadır, yoxsa real əsasları var?

**Siyasi şərhçi Abutalıb Səmədov “Yeni Müsavat”a bildirdi ki, hadisələr Co Baydenin həm Rusiya-Ukrayna cəbhəsində, həm də İsrail-HƏMAS qarşıdurmasında real iş görmək imkanına malik olmadığını, yaxud istəmədiyini göstərdi:** “Donald Trampla son debat da onun nə qədər yararsız siyasətçi olduğunu bütün dünyaya nümayiş etdirdi və ABŞ-da Co Baydenin dəyişdirilməsi barədə fikir söyləyənlərin sayı gün-gündən artır. Bu səbəbdən Trampa ümid edənlər də daha çoxdur. Onun qətiyyəti, müəyyən qədər də avantürist siyasətçi olduğu, kobud müdaxilələrdən bəzən çəkinmədiyi yaxşı məlumdur. Tamamilə mümkündür ki, Donald Tramp prezident seçiləcəyi təqdirdə həm Ukrayna müharibəsində, həm İsrail-HƏMAS qarşıdurmasında real addımlar atmaq iqtidarındadır. Onun xüsusilə Ukrayna-Rusiya müharibəsi ilə bağlı söylədiyi mülahizələr kifayət qədər ağılabatan mülahizələrdir. Bəyan eləyir ki, mən Volodimir Zelenskidən Vladimir Putindən sülh danışıqlarına başlamağı tələb edəcəyəm, Zelenski istəməsə, onu Ukraynaya yardımı dayandırmaqla hədələyəcəyəm, Putin sülh danışıqlarından imtina eləsə, ABŞ-ın yardımlarını xeyli artırıb Rusiyanı sülhə gəlməyə məcbur edəcəyəm. Tramp belə bir həll formulu ortaya atıb. Təbiidir ki, burada da müəyyən problemlər yarana bilər, ancaq hər halda, ortada plan var və Trampı müəyyən qədər tanıdığımızdan güman eləmək olar ki, Ukraynaya daha çox təzyiq göstərməklə bu məsələni nizama sala bilər. Eyni planın işə salınması Qəzzada da mümkündür. Tramp İsraillə Qəzzada qarşıdurmaya son qoyulması, sülh danışıqları aparılması tələbi irəli sürə bilər. Gözləyək, hər halda, Co Bayden siyasətindən bu məsələlərdə müsbət bir nəticə olmayacağı hər kəsə aydındır. Nəsə edə bilsə Tramp edəcək”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**



## Stoltenberq Çini Avropada müharibəni qızışdırmaqda ittiham edib

**NATO-nun baş katibi Yens Stoltenberq Çini II Dünya müharibəsindən sonra Avropada ən böyük münaqişəni qızışdırmaqda ittiham edib. Musavat.com xəbər verir ki, onun sözlərini “Yomiuri Shimbun” qəzeti sitat gətirib.**

Stoltenberqin sözlərinə görə, Çin Rusiyanı PUA və raket istehsalında dəstəkləyir, onu texnologiya və elektronika ilə təmin edir.

NATO-nun baş katibi hesab edir ki, alyans Pekinə təzyiq göstərmək üçün Yaponiya, Cənubi Koreya, Avstraliya və Yeni Zelandiya ilə tərəfdaşlığı gücləndirməlidir.

Bundan əvvəl Stoltenberq demişdi ki, Qərb Çinə Ukrayna münaqişəsində Rusiyaya dəstək verdiyi iddiasına görə “ödəniş” verməlidir. Stoltenberqin sözlərinə görə, Si Cinpin “sanksiyalardan qaçmaq üçün bu münaqişədə arxa plana keçdiyinə dair təəssürat yaratmağa” çalışır.

NATO-nun baş katibi qeyd edib ki, əgər nə vaxtsa Pekin öz kursunu dəyişməzsə, Qərb onu bədəl ödəməyə məcbur etməlidir.

Stoltenberqə görə Çin konkret olaraq NATO-ya meydan oxuyur: “NATO Çini rəqib hesab etmir, lakin alyans Pekinin onun dəyərlərinə və maraqlarına meydan oxuduğuna inanır”.

Stoltenberq həmçinin iddia edib ki, ÇXR-in Tayvanı və ona qonşu olan ölkələri təhdid etdiyini vurğulayıb.

Bundan əlavə, NATO baş katibi Çini Rusiya Federasiyasına hərbi dəstək verməkdə ittiham edib.

❑ **Musavat.com**

# Yeni taksi qaydaları başladı - qiymətlər bahalaşdı və ...

## Ekspert: "Ən böyük problem ictimai nəqliyyatın maksimum əlçatımlı olmamasıdır"

**İyulun 1-dən ölkədə yeni taksi qaydaları tətbiq olunmağa başladı. Belə ki, dünəndən dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 15 ildən artıq müddət keçən avtomobil nəqliyyatı vasitələri taksi minik avtomobilləri ilə sərnişin daşımalarında istifadə oluna bilməz. Bu, Nazirlər Kabinetinin təsdiq etdiyi "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"də öz əksini tapıb.**

Sənəddə qeyd olunub ki, taksi minik avtomobilləri ən azı "Avro-5" ekoloji standartına uyğun olmalıdır.

Bundan başqa, dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 8 ildən artıq müddət keçmiş avtonəqliyyat vasitəsinə "Avtomobil nəqliyyatı haqqında" Qanunla müəyyən edilən buraxılış kartı verilməyəcək.

Bəs yeni qərarın tətbiqi nə ilə nəticələnir? Reydlər başlayıbmı? Köhnə taksilər dövriyyədən çıxıb, yoxsa gizli çalışırlar? Yeni qayda xaosu aradan qaldıracaq, yoxsa daha bərbad vəziyyət yaranacaq? Məsələ ondadır ki, paytaxtda 70 minə yaxın taksi var idi. Onlardan cəmi 15 minə yaxınının müvafiq sənədlər əldə etdiyi və yeni normalar üzrə çalışmağa icazə aldığı bildirilirdi.

Məsələni daha yaxından araşdırmaq üçün "Yeni Müsavat"ın əməkdaşı kimi paytaxtda taksi fəaliyyətini müşahidə etməyə çalışdıq. Taksi sürücüləri bizimlə söhbətləşərkən bildirdilər ki, artıq "Bolt", "Uber" kimi taksi şirkətləri qaydalara uyğun gəlməyən taksilərin sürücülərinin profillərini bloklamağa başlayıb. Sürücülərə gəldikdə, müşahidələrimizdən məlum oldu ki, əksər taksi sürücüləri fəaliyyətinə icazə verilməsə də, hələ ki fəaliyyətlərini davam etdirirlər.

**70 yaşlı taksi sürücüsü Nəriman Tağıyev bizimlə söhbət zamanı bildirdi ki, artıq uzun illərdir ki, taksi fəaliyyəti ilə məşğuldur, amma yeni qaydalar onu çətin vəziyyət qarşısında qoyub:** "Şəxsən mən tələb olunan sənədləri, icazə kartı ala bilməmişəm. Səbəb avtomobilimin istehsal tarixinin 8 ildən çox olması ilə bağlıdır.









Ümumiyyətlə isə həmin sənədlərin hazırlanması üçün maddi imkanım yoxdur. Sənəd əldə edənlərin dediklərinə görə, bunun üçün azı 500-600 manat pul lazımdır, bu pul isə məndə yoxdur. 70 yaşım var, işləyib günə 5-10 manat pul qazanıb, ailəmi dolandırıram, o qədər pulu haradan alım?"

**Taksi sürücüsü Musa Pripuri isə yeni qaydalara əsasən çox sayda sənəd tələb olunmasının doğru olmadığını düşünür:** "Neçə ilin taksi sürücüsüyük, indi bizə deyirlər ki, gedin imtahan verin, narkoloji testdən keçin. Bizim kimi sağlam adamın narkoloji testdən keçməsinə nə ehtiyac var? Kim ki, narkotik maddələrin istifadəçisidir, onlar bu cür testdən keçməlidir. Yaşlı insanlarıq, müəyyən sənədlər üçün biri 200, biri 300 manat tələb edir, bu qədər pulu necə verək? Gündəlik işləyib, evə 5-10 manat pul aparır, ailəmizi dolandırırıq. Bir gün işləməsək, pulsuz-parasız qalırıq. Ona görə də o qədər pulu aparıb sənədlərə vermək imkanımız yoxdur".

**Xəqani Həsənov da artıq 20 ildir taksi sürücüsü kimi fəaliyyət göstərdiyini deyir:** "Yeni qaydalarla tələb olunan sənədləri almaqda çətinlik çəkirəm. Həmin sənədlər də ala bilmədiyimə görə yəqin ki, yaxın vaxtlarda taksi fəaliyyətindən uzaqlaşmalı olacam.

Ümumiyyətlə, yeni qaydaların olmasının tərəfdarıyam. Çünki son illərdə hamı, bütün peşədən olan insanlar taksi fəaliyyəti göstərməyə başlamışdı. Mənim peşəm sırf taksi sürücülüyüdür, başqa sahədə heç vaxt çalışmamışam. Amma hamının bu sahəyə gəlməsi biz peşəkar taksi sürücülərini də "oda atmış" oldu. Yəni bu gün onlara görə biz öz çörəyimizdən olmuşuq. Bəli, yeni qaydalar yaxşıdır, amma yaxşı olardı ki, hökumət bu qaydaları 5-6 il əvvəldən icra edərdi, özü də tədricən, yoxsa bu cür sərt tələblərlə deyil".

**Sürücü Rafael İbayev isə artıq taksi fəaliyyəti üçün icazə kartı aldığını deyib**: "Bütün imtahanlardan uğurla keçdim. Buraxılış vəsiqəsi üçün dövlət 125 manat, buraxılış kartı üçün 25 manat, şəhadətnamə üçün 76 manat, narkoloji testdən keçmək üçün 30 manat ödədim. Bircə qalıb fərqlənmə üçün 74 manat ödəmək, bu da problem deyil, yəni işlədiyim müddətdə ödəyə bilərəm".

**Sürücü Azad Əmanov da taksi fəaliyyəti üçün tələb olunan qaydalar əsasında müvafiq sənədlərini aldığını deyir. Bununla belə, taksi qiymətlərinin artmamasından narazıdır:** "Sənədlərə bu qədər pul xərclədik, bütün prosedurlardan keçdik, amma hələ ki taksi qiymətlərində artım yoxdur. Halbuki şirkətlər bizə bildirmişdi ki, yeni qaydalar tətbiq olunanda qiymətlər də artacaq. Doğrudur, müəyyən pik saatlarda qiymət artımı olur, bu da taksi çatışmazlığından irəli gəlir. Amma ümumilikdə qiymətlərdə artım yoxdur".

Taksi xidmətindən istifadə edən sərnişinlər isə bunun əksini bildirir. Qeyd edirlər ki, son həftələrdə taksi qiymətləri az qala 2 dəfə artıb. Məsələn, sifariş etdikdə, bir neçə yüz metrlik məsafə üçün 3 manat 11 qəpik və ya 4 manat 50 qəpik qeydə alınır. Qiymət taksi şirkətlərinə görə dəyişir. Sərnişinlər yeni qaydaların tətbiq olunmasından razı, amma qiymət artımından xeyli narazıdırlar.

"Belə görünür ki, bundan sonra yalnız məcburiyyət qarşısında qaldıqda taksi sifariş edəcəm. Çünki sərf etmir. Məsələn, əgər hansısa məsafə üçün gediş haqqı 3,5 manat yazırdısa, indi azı 6 manat yazır. Pik saatlarda isə həmin məsafə üçün bəzən 7 manat da yazılır. Bu heç yaxşı hal deyil. Hətta eşidirik ki, qiymət artımı hələ davam edəcək", - deyə Arif adlı Bakı sakini bizə açıqlamasında bildirir.

**Nəqliyyat eksperti Ərşad Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Burada söhbət taksi islahatlarından gedir. Hədəf başa düşüləndir, bu sahədə xaos olmamalıdır, nizam-intizamlı, keyfiyyətli, mədəni xidmət olmalıdır. Lakin istənilən sahədə hər şeyi ideal vəziyyətə gətirmək mümkün deyil. Ona görə də ilk növbədə ictimai nəqliyyatı yaxşılaşdırmalıyıq. Əgər Bakıda və digər bölgələrdə ictimai nəqliyyatdakı mövcud problemləri aradan qaldırmasaq, ictimai nəqliyyat maksimum dərəcədə əlçatımlı olmasa, avtobuslar yenə də qrafiklə işləməsələr və sairə, biz heç zaman uğur qazana bilməyəcəyik.

Ümumiyyətlə, ölkəmizdə nəqliyyatla bağlı problemlərin böyük əksəriyyəti ictimai nəqliyyatın maksimum əlçatımlı olmamasıdır. Yəni insanlar daha çox ictimai nəqliyyatdan istifadə edər, fərdi avtomobillərlə törədilən yol hadisələrinin sayı az olar.

Məlumata görə, bu günə qədər Bakıda cəmi 15 minə yaxın taksinin müvafiq sənədlər əldə edib və yeni normalar üzrə çalışmağa icazə alıb. Bununla da taksilərin sayı da xeyli azalıb. Hesab edirəm ki, taksilərin sayının azalmasına deyil, taksi xidmətinə müraciətlərin sayının azalmasına çalışmaq lazımdır".

Bəs Bakı-Sumqayıt üzrə işləyən 1 manatlıq yolüstü maşınların taleyi necə olacaq? Səhər və axşam Bakıya işə gəlib gedəndə yolüstü adam götürənlər də cərimələnəcəkmi?

**Ərşad Hüseynov suallarımızı bu cür cavablandırdı:** "Əlbəttə ki, həmin sürücülər də qaydalara əməl etməlidir. Əgər fəaliyyətləri qaydasında olmasa, onlara qarşı da nəzarət tədbirləri görülməli, lazım gələrsə, cərimələnməlidirlər".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# Artan qətllər, intihar və kriminallar - səbəb...

## Ekspert: “Dövlətlər aqressiv tövr nümayiş etdirəndə, bu, nəticədə insanlara da sirayət edir”

**Son aylarda ölkədə kriminallar, xüsusilə qətllər və intiharlar artıb. Eyni zamanda insanların davranışlarında aşırı aqressiya müşahidə olunur. Habelə kriminal xronikadan görünür ki, müəmmalı şəkildə itkin düşən, evdən qaçan adamlar da çoxalıb. Sanki ölkədə bir kütləvi psixoz durum yaranıb. Səbəblər nədir? Cəmiyyətdəki aqressiyanı azaltmaq mexanizmləri nədir? Dünya təcrübəsində hansı taktikalar tətbiq olunur?**



**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** “Yeni Müsavat”a deyib ki, baş vermiş qətllərin əksəriyyəti tamah motivlidir: “Əlbəttə, hamı istər ki, bu cür qətllərin sayı azalsın. Amma mən məhkəmə-istintaq təcrübəsinin sovet dövrünü götürəndə deyə bilərəm ki, ailə münaqişəsi zəminində cinayətlər az idi. Elə görünməsin ki, sovet dövrünü tərifləyirəm, amma bu, reallıqdır. Çünki bizdə milli dəyərlər, ağsaqqal və qarasaqqal anlayışı var, o halda ailə münaqişəsini qızışmağa qoymurdular. İndi isə texnologiyanın sürətli inkişafı cinayətkarlığa qarşı mübarizəni asanlaşdırsa da, cinayətlərin sayının artmasına təsir edib. Məsələn, kişi qadına deyir ki, səndən şübhələnirəm, kiməsə mesaj yazırsan və ya şəkil yollayırsan. Hətta bir neçə il qabaq Sabunçuda qız oğlanı görüşə çağırmışdı, qardaşları gəlib onu öldürdülər. Bax, müasir texnologiya konfliktli situsiyalara bu şəkildə "stimul" verir. Eyni zamanda qloballaşma gedir, dünyaya açılım var, gediş-gəliş artıb, yeni əlaqələr qurulur və bütün bunlar belə hallara təsir edir. Ümumən cinayətsiz cəmiyyət olmur".

**Natiq Ələsgərov deyib ki, paralel olaraq maarifçilik işini gücləndirməlidir:** “Televiziyalar bu yöndə maarifçiliklə məşğul olmur. Qəzetlər yazır, amma geniş auditoriya üçün televiziyaların müstəsna rolu var. Telekanallarda yayımlanan verilişlər ailə münaqişəsi problemini qızışdırır, tərbiyələndirmir".

**Psixoloq Azad İsazadə baş verən olaylarda qəddarlığın kökünü cəmiyyətdəki aqressivlikdə görür:** “Cəmiyyətdə aqressivlik çoxalanda hansısa münaqişələrdə bu aqressivlik özünü daha güclü şəkildə göstərir. Cinayət törədənlər də bu cəmiyyətin üzvləridir. Ona görə də bu cəmiyyətin içində belə hallar baş verir. Ümumilikdə isə bütün dünya hazırda qaynar qazanı xatırladır. Hər yerdə aqressiya artan xətlə gedir. Müharibələrin də çox ciddi təsiri var. Hər gün aqressiv hərəkətlərlə rastlaşırıq deyə aqressiv hərəkətlər bizə normal görünür. Üstəlik, mətbuatda, telekanallarda, sosial şəbəkələrdə aqressivliyin təbliği olan filmlər, xəbərlər, verilişlər davamlı şəkildə diqqətə çatdırılır. Bütün bunlar son nəticədə fərdlərin şüuruna təsir edir, adiləşmiş qəddarlıq fərdin fərdi öldürməsi, ona ölümcül zərbə endirməsi ilə sonunclanır".

**Azad İsazadə deyir ki, hazırda müşahidə olunan aqressivliyin qarşısının alınması üçün konkret reseptlər yoxdur**: “Bəzi alimlər aqressivliyin artmasını planetar dəyişikliklərlə izah edirlər. Dünyada müharibə ocaqları artır, qan tökülməsi adi hala çevrilir. Bir müddət belə davam edəndən sonra isə dinc bir periodun olacağı pronozlaşdırılır. Digər bir nəzəriyyəyə görə isə dövlətlərin davranışları ilə bağlıdır. Qeyd olunur ki, dövlətlər aqressiv tövr nümayiş etdirəndə, bu, nəticədə insanlara da sirayət edir. Əks-proses olanda isə əhalidə də sakitləşmə, mülayimləşmə prosesi gedir. Dövlətlərin halı - aqressivliyi artanda cəmiyyətdə də belə bir proses başlayır, cəmiyyətə keçir. Müşahidə etdiyimiz qəddarlıqların kökünü bu istiqamətdə axtarmalıyıq".

❑ **Elşən MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# Dünya qlobal müharibənin astanasında

## Azərbaycan da hazırlıqlara başlamalıdırmı?

**Son dövrlərdə baş verən proseslər dünyanın diqqətini yenidən qlobal müharibə çağırışlarına kökləyib. Bu gün dünyada şərti olaraq “kollektiv Qərb” ilə “kollektiv Cənub” adlanan dövlətlər qrupları formalaşıb. Bu qruplar arasında siyasi, hərbi, texnoloji sahələrində əvvəllər gizli gedən mübarizə artıq yeni mərhələyə adlayıb və açıq şəkil alıb. “Qərb” birqütblü nizamı, “Cənub” isə çoxqütblü dünya nizamı qurmaq niyyətindədir. Avropa ölkələrində Rusiya-Ukrayna müharibəsi fonunda qlobal müharibə hazırlıqlarını davamlı şəkildə davam etdirirlər. Qonşu Türkiyə də belə hazırlıqlar içindədir.**



Azərbaycanın iki qonşusu - Rusiya və İran qlobal müharibədə eyni cinahda dayanan tərəfdirlər.

Bu gedişat Azərbaycana nə vəd edir? Qlobal müharibə başlayarsa, ölkəmizin coğrafi baxımdan döyüşlərin tam mərkəzində yerləşməsini nəzərə alsaq, Azərbaycanda da Türkiyədə olduğu kimi, hazırlıqlar aparılmalıdırmı?

**Siyasi şərhçi Heydər Oğuz** “Yeni Müsavat”a verdiyi açıqlamasında qlobal geosiyasi rəqabəti tektonik lövhələrlə müqayisə edib. Onun fikrincə, necə ki, Yer kürəsi müxtəlif lövhələrdən ibarətdir və zəlzələlər, vulkanlar adətən bu lövhələrin birləşmə, yaxud ayrılma xətləri üzərində baş verir, dünya geosiyasəti də eynilə müxtəlif “lövhələr”dən təşəkkül tapır: “Bu geosiyasi "lövhə"lərin bir də qırılma xətləri var. Həmin qırılma xətlərini belə sıralamaq olar:

**1) Balkanlar;**
**2) Yaxın Şərq;**
**3) Cənubi Qafqaz;**
**4) Hind-Sakit okean.**

Azərbaycan da sözügedən geosiyasi tektonik qırılma xətlərindən birində - Cənubi Qafqazda yerləşir. Dünyada baş verən 2 böyük dünya müharibələrinə nəzər salsaq, bunların ikisi də ya həmin geosiyasi tektonik qırılma xətləri üzərində, ya da uğrunda gedib. Bilirsiniz ki, I Dünya müharibəsi Balkanlardan başlasa da, əslində Osmanlı imperiyasının bölüşdürülməsini qarşıya hədəf qoymuşdu. Ondan əvvəl isə Qacariyyə dövləti parçalanmış və Şimali Azərbaycan ruslar tərəfindən işğal olunmuşdu. Dolayısıyla, biz erkən başlayan I Dünya müharibəsinin qurbanına, I Dünya müharibəsi ərəfəsində isə Osmanlı ilə rus imperiyasının qarşılaşmasının poliqonuna çevrilmişdik. Məhz bu geosiyasi müharibələr zamanı ilk başda Çar Rusiyasının zəifləməsi ilə müstəqilliyimizi qazanmış, daha sonra Osmanlının məğlubiyyəti ilə yenidən Sovet Rusiyasının işğalına məruz qalmışdıq. İkinci Dünya müharibəsində də əsas hədəflərdən biri Cənubi Qafqaz və Azərbaycan idi. Almaniyanın SSRİ-ni işğal eləmək üçün tərtib olunan "Barbarossa" planında Azərbaycan və Bakının işğalına xüsusi yer verilirdi. Həmin planın təsdiqi ilə əlaqədar Berqhofda yığılmış müşavirədə Hitler açıq şəkildə bildirmişdi ki, Azərbaycanın neft mədənlərini, Bakı rayonunu ələ keçirmək Almaniya üçün həyati əhəmiyyətə malikdir. Tarixi mənbələr də təsdiqləyir ki, Hitler Berqhof müşavirəsində fikirlərini belə ifadə edib: "Bakının tarixi missiyası böyük Almaniyanın yanacaq çəni rolunu oynamasındadır". O vaxt sadəcə faşist qoşunları Şimali Qafqazda dayandırıldığından Bakıya gəlib çıxa bilməmişdilər".

**Bu məntiqdən çıxış edən Heydər Oğuz əmindir ki, III Dünya müharibəsi də məhz geosiyasi “tektonik qırılma xətləri”ndə çıxacaq:** “Hətta deyərdim ki, çıxıb. Söhbət əgər III Dünya müharibəsindən gedirsə, onun ilk atəşi II Qarabağ savaşında atılıb. Ukrayna savaşı, İsrail-Fələstin müharibəsi, Balkanlarda və Hind-Sakit okeanında günü-gündən artan gərginliklər Qarabağda başlayan III Dünya müharibəsinin tətiklədiyi "tektonik qırılmalar"dır. Yenə coğrafi nəzəriyyələrə qayıtsaq, bu elm də təsdiqləyir ki, bəzən hər hansı tektonik qırılma digər lövhələrdə də hərəkətlənmələrə yol açır və bir müddətdən sonra o bölgələrdə də qırılmalar meydana çıxır. Bu baxımdan mən şəxsən dünyanın dörd bir tərəfinə yayılan gərginlikləri Qarabağ savaşındakı qələbəmizin yol açdığı hesablaşmalara bənzədirəm".

**Heydər Oğuzun fikrincə, biz bəzən III Dünya müharibəsi ilə nüvə savaşlarını qarışdırırıq:** “Buna görə də nüvə partlayışlarını görməyincə, III Dünya müharibəsinin başlanmadığını düşünürük. Halbuki nə I, nə II Dünya savaşında nüvə bombaları partlamayıb. Amma bu o demək deyil ki, dünya müharibələri olmayıb. Bu gün də eyni məntiqlə düşünsək, III Dünya müharibəsi deyərkən, nəyi nəzərdə tutduğumuza aydınlıq gətirməliyik. Əgər söhbət nüvə müharibəsindən gedirsə, mən şəxsən dünya liderlərinin bu silahdan istifadə edəcək qədər ağılsız olduqlarını sanmıram. Çünki nüvə müharibəsinin qalibi olmaz. O silahların düyməsini basanlar dünya ilə bərabər öz ölkəsini də məhv edərlər. Əgər söhbət dünya müharibəsindən gedirsə, o, haradasa 4 il əvvəl başlayıb".

**Bəs bu müharibə yenidən başladığı nöqtəyə qayıda bilərmi?**

**Heydər Oğuz bunu da istisna etmir:** “Bilirsiniz ki, bütün müharibələr yalnız bir halda başladığı yerə qayıdır - tərəfi və ya tərəfdaşı olduğun cinah müharibədə məğlub olarsa, düşmən itirdiyi əraziləri yenidən geri qaytarmağa çalışar. Xüsusilə II Dünya müharibəsində belə oldu. Almanlar Şərqi Avropa ölkələrini ala-ala Leninqrada qədər gəldilər. Sonunda böyük müqavimətlə üzləşib gəldikləri yolla geri döndülər. Dolayısıyla aldıqları əraziləri bir-bir geri verə-verə Berlinə gedib çıxdılar. Eyni şeylər bu gün də təkrarlana bilərmi, nəzəri olaraq, bəli. Amma faktiki olaraq, bunun baş verməsi o qədər də real görünmür. Çünki Azərbaycan və Türkiyə bu gün getməkdə olan III Dünya müharibəsində elə mövqe tutub ki, hansı tərəfin qalib gəlməsindən asılı olmayaraq, udan tərəfə çevrilə bilər. Necə ki, II Dünya müharibəsində Türkiyə incə diplomatik manevrlərlə özünü məğlub olmaqdan sığortaladı. Bu da onun müharibə zamanı balanslaşdırılmış xarici siyasətindən qaynaqlanırdı. Məncə, Azərbaycan da balanslaşdırılmış xarici siyasətini tərk etməməli, özünə aid olmayan hərbi hesablaşmalara qatılmamalıdır. Əlbəttə, bu o mənaya gəlmir ki, biz balanslaşdırılmış xarici siyasətimizə arxayın olub savaşa da hazırlaşmamalıyıq. Əksinə, məşhur bir aforizmi yaddan çıxarmamalı və "müharibə istəmiriksə, müharibəyə hazır olmalıyıq"".

❑ **Elşən MƏMMƏDƏLİYEV, Musavat.com**

Yeni Müsavat
N 112 (8485) 2 iyul 2024

**Futbol üzrə Avropa Çempionatı həyəcanı getdikcə artmaqdadır. Artıq yarışın 1/8 final mərhələsi gedir. Qəzet çapa gedərkən bu mərhələnin Fransa-Belçika və Portuqaliya-Sloveniya oyunları keçirilirdi. Nəticələr tam şəkildə məlum olmadığı üçün məlumat verə bilmədik.**

# Avro-2024-ün həyəcanlı anı - Türkiyənin tamam, ya da davam savaşı

## Qardaş ölkə 16 ildən sonra həmin uğuru təkrarlayacaqmı...



Ancaq onu bildirək ki, 4 ölkə çeyrək final mərhələsinə vəsiqəni təmin etmişdi. Bunlar meydan sahibi Almaniya, İsveçrə, İngiltərə və İspaniya yığmaları idi.

Bu gün, yəni iyulun 2-də bu mərhələnin son oyunları baş tutacaq. Qardaş Türkiyə turnirin güclülərindən sayılan Avstriya ilə qarşılaşacaq. Oyun Bakı vaxtı ilə saat 23:00-da start götürəcək. Gecənin digər qarşılaşmasında Rumıniya çeyrək finala çıxmaq üçün Hollandiyanı sıradan çıxarmağa çalışacaq. Bir sözlə, çox gərgin oyunlar futbol azarkeşlərini gözləyir.

Heç şübhəsiz ki, azərbaycanlı futbol həvəskarlarının qəlbləri türk qardaşlarımızla döyünəcək. Avstriyanın isə çeyrək finala gedən yolunu kəsmək elə də asan görünmür. Təsadüfi deyil ki, Türkiyə Avro-2024 start götürməmişdən günlər öncə keçirilən yoldaşlıq oyununda bu kollektivə 6-1 hesabı ilə məğlub olmuşdu. Eyni zamanda Avstriya mübarizə apardığı qrupda Fransa və Hollandiya kimi güclü futbol ölkələrini qabaqlayaraq, lider kimi qrupdan çıxmağı bacarıb. Avstriya ilə müqayisədə qardaş Türkiyənin Avro-2024-də indiyə qədər keçirdiyi oyunlar qənaətbəxş sayılmayıb. Hətta bəzi tənqidlərə də məruz qalıb.

Amma türkün əzmkarlığını da xüsusi vurğulamaq yerinə düşər. Tam olaraq, 16 il öncə də qardaş ölkənin Avropa Çempionatındakı oyunları indiki kimi tənqidlərə məruz qalırdı. Amma həmin çempionatda ay-ulduzlular yarımfinala qədər irəliləməyi bacarmışdılar.

**Tanınmış idman yazarı Natiq Muxtarlı bu çempionatın finalında sensasion adlara rast gələ biləcəyimizi ehtimal edir:** "Avropa çempionatının 1/8 final mərhələsində 4 görüş yekunlaşdı. Sensasiya baş vermədi, favorit komandalar növbəti mərhələyə vəsiqə əldə etdilər. İsveçrənin İtaliyanı mübarizədən kənarlaşdırması tam qanunauyğun oldu. İtaliya ənənəvi taktikasına - "avtobus" qurmaqla qələbə qazanmaq ənənəsinə sadiq idi. Amma bu dəfə taktika işə yaramadı, parlaq futbolun təntənəsi yaşandı. İtaliya Almaniyanı tərk etdi. Amma Almaniyada İtaliya kimi oynayan komandalar qalıb. Onlardan biri də İngiltərədir. Ənənəvi ingilis futboluna xəyanət edən Sautqeytin komandası Slovakiyanın əlindən canını güclə qurtardı. İndi onları antifutbolun qənimi olan İsveçrə gözləyir. İngilislər Slovakiya ilə oyundakı futbol fəlsəfəsinə sadiq qalsalar, İsveçrənin qurbanı olacaqlar. İngilislər İsveçrə səddini keçsələr kimə rəqib ola bilərlər? Öz oyununu tapa bilməyən Niderlanda, yoxsa parlaq oyun göstərən Avstriyaya? Yoxsa bəxtin üzünə bir daha güləcəyi Türkiyəyə? Hər halda, finala aparan bu xətdə müxtəlif oyun fəlsəfəsinə güvənən yığmalar var. Deməli, maraqlı mübarizə gözlənilir. Hətta finalda sensasion ad görə bilərik: İsveçrə və ya Avstriya. Türkiyə olsa, nə yaxşı... Amma etiraf edək ki, indiyə qədər göstərdiyi oyunu nəzərə alsaq, Türkiyənin şansı yoxdur. Almaniya Danimarkaya çətinliklə də olsa, qalib gəldi və hücum futbolundan imtina etmədi. İspaniya isə yenə də parlaq, yaradıcı futbol göstərdi. İndi 1/4 finalda bu komandaların dueli gözlənilir? Kimin şansı daha çoxdur? İspaniya dinamik, yaradıcı komandadır. Bu yığma meydanda həm topla, həm də topsuz mükəmməl davranır. Fikrimcə, cütün favoriti İspaniyadır. Bu dueldən qalib ayrılacaq komanda yarımfinalda Fransa və ya Portuqaliya ilə qarşılaşa bilər. Təbii ki, Sloveniya və ya Belçika möcüzəsi yaşanmasa.

Etiraf edək ki, proqnoz verilməsi çətin olan situasiyadır. Almaniya İspaniyanı məğlub etsə, özünəinamı xeyli artacaq. Ondan sonra almanların qarşısını çətin ki, kimsə kəsə bilsin. Amma İspaniyanı məğlub etmək üçün Almaniya mükəmməl oyun göstərməlidir. 1/4 mərhələdə Almaniya-İspaniya oyununu erkən final saya bilərik. İlk 1/8 final qarşılaşmalarından sonra oyun keyfiyyətini incələsək, belə nəticəyə gəlmək olar: çempionluğa əsas namizəd İspaniyadır".

**Futbol mütəxəssisi Kənan Məstəliyev kənardan rəqiblə müqayisədə zəif görünən millilərin belə sona qədər döyüşdüyünü qeyd etdi:** "Hamı futbol oynaya bilir". İzlədiyimiz Avropa çempionatının əsas nəticəsi budur. Yarışda iştirak edən hər kəs öz oyununu ortaya qoyur, sona qədər mübarizə aparır. Autsayder saydıqlarımız rəqibin adından çəkinmir, döyüş təklif edir, hətta bu döyüşlərdən qalib də çıxırlar. İsveçrə buna ən bariz nümunədir. Son Avropa çempionu İtaliya ilə qarşılaşmada Murat Yakının yetirmələri həm taktiki savaşda, həm də istəkdə üstün oldular, "Skuadra Adzurra" isə heç nə ilə yadda qalmadı. Daha adlı-sanlı, daha tanınmış futbolçulardan qurulan apenninlilər, meydanda adların oynamadığının, kağız yox, yaşıl ot üzərində qalib gəlməyin vacibliyini hiss etdilər. Almaniya da eyni aqibəti yaşamaq üzrəydi. Bir neçə santimetrlik ofsayd, ələ düşən imkanlardan yararlanma problemi olmasaydı, Danimarka 1/4 finala çıxacaqdı. İngilislər isə slovakların müqavimətini yalnız son saniyələrdə qıra bildilər. Kalsona qorxaq oynamayıb, "yuxulu futbol" tərəfdarı olan Sautqeytə əl-qol açmaq imkanı verməsəydi, indi daha bir sensasiyadan danışırdıq. Qonşularımız Gürcüstan da nəhəng İspaniyaya çətin anlar yaşatdı. Rəqibini əks-hücumlarda tutmağa çalışmaq taktikası ilk hissədə öz effektini verdi, sadəcə, fasilədən sonra pireneylilərin səviyyəsi özünü göstərdi. Uilyams, Rodri və Yamalın oyununu izləmək lazım idi. Belə oyunçuları olan komandanı məğlub etmək çətin olacaq. Amma yenə də gürcülərə alqış düşür. Bundan sonrakı matçlarda da biz yuxarıda qeyd etdiyim məqamlara rast gələcəyik. Favoritlərə badalaq vurmaq üçün çalışan komandalar bunun üçün əllərindən gələni edəcəklər. Bu, yarımfinallar və finalda sürpriz bir komandanı izləmək ehtimalımızı artırır. Qardaş Türkiyənin də şansı var. Komanda daxili gərginlik, heyətdəki boşluqlar və digər bir çox səbəblər ay-ulduzlulara mane olur. Üstəlik, Avstriya da çətin rəqibdir. Ralf Ranqnik ultra-pressinq futbolu ilə çempionatda hər bir rəqibi yenmə potensialına malikdir, bunu sübut da edib. Türkiyə avantüraya getməməli, hisslərə qapılmamalıdır. Mümkün olduğu qədər praqmatik, hətta müdafiə futbolu oynamalı, əks-hücumlarda öz şansını gözləməlidir. İstənilən kapriz yenilgini gətirəcək. Səbrli olmalıdılar. Düzdür, türklər və səbr ayrı-ayrı anlayışlardır, amma bir oyunluq bunu etmək lazımdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Leysan olacaq, dolu düşəcək, çaylardan sel keçəcək

**Azərbaycanın rayonlarında iyulun 2-dən 3-ü axşamadək bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə (Gəncə-Qazax, Daşkəsən-Gədəbəy, Qarabağ və Şərqi Zəngəzur, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Lənkəran-Astara, Mərkəzi Aran) yağıntıların leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var.**

Milli Hidrometeorologiya Xidmətindən Musavat.com-a verilən xəbərə görə, çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın, Lənkəran-Astara bölgəsinin ərazisindən axan bəzi çaylardan qısamüddətli daşqın və sel keçəcəyi gözlənilir.

YENİ MÜSAVAT

Son səhifə

N 112 (8485) 2 iyul 2024

iyul

## Bunları bilirsinizmi?

* Qarışqa öz ağırlığının 50 qatını qaldıra bilər.
* Yarım kilo bal hazırlamaq üçün arılar iki milyondan çox çiçəkdən nektar toplamalıdırlar.
* Tarakanlar təxminən 250 milyon il yaşasalar da, heç bir dəyişikliyə məruz qalmayıblar.
* Kenqurular geriyə doğru yeriyə bilməzlər.
* Fillər tullanmayan yeganə məməlilərdir.
* Bir inək həyatı boyu təxminən 200.000 stəkan süd istehsal edir.
* Erkək pinqvinlər 4 aylıq inkubasiya dövründə heç nə yemirlər.
* Siçan susuz dəvədən də çox qala bilər.
* Köçəri quşlar "V" formasında uçur və beləliklə, sərf etdikləri enerjinin 23 faizini qənaət edirlər.
* Xəstələnməyən yeganə heyvan köpəkbalığıdır.
* Bir ildə dənizlərdən tutulan balıqların çəkisinin üç qatı dənizlərə atılır.
* Tibetdə çay fincanını iki əllə tutmamaq hörmətsizlikdir.
* Lobsterlərin mavi qanı var.
* Dünyanın ən böyük yumurta köpəkbalığı.
* Köstəbək bir gecədə 90 metrlik tunel qaza bilir.
* Bir ilbizin dişlərinin sayı 25 minə çata bilər.
* İlbizlər yemək yemədən üç il yatır.
* Zürafələrin səs telləri yoxdur.
* Qütb ayıları solaxaydır.
* Fillər tullana bilməyən yeganə məməlilərdir.
* Kenqurular geriyə doğru yeriyə bilməzlər.
* Pişiklərin beynində 32 əzələ var.
* Kəpənəklər ayaqları ilə dad verirlər.

# Böyük Britaniya musiqi festivalında xaos yaranıb



**Böyük Britaniyanın Qlastonberi şəhərində keçirilən böyük musiqi festivalında yüzlərlə insanın qeyri-qanuni olaraq tədbir sahəsinə daxil olması səbəbindən xaos baş verib.**

Bildirilib ki, yüzlərlə insan sadəcə 50 funt-sterlinqə satılan saxta biləlzirklərlə festivala daxil olub. Onlar baryerlərin üstündən tullanaraq festival ərazisinə keçiblər və buna görə tədbirin təşkilatçıları səhnələri bağlamağa məcbur olublar, insanlar isə sıxlıq səbəbindən təşvişə düşüblər.

Qeyd edək ki, rəsmi olaraq biletlərin qiyməti 350 funt-sterlinq olub. Saxta bilet satan şəxslər onları Kasl Keri dəmir yolu vağzalında qarşılayıb, festivalda insanların əlindən sürüşüb düşən və təşkilatçılar tərəfindən müsadirə edilən qolbaqlar veriblər. Daha sonra saxta bilet sahiblərinə pilləkənlərlə hasarın başına qalxmağa kömək ediblər, bundan sonra insanlar sadəcə atlayaraq səhnəyə doğru qaçıblar.

## Göz önündə parıltılar nədən yaranır



**Göz önündə qəribə naxışların yaranmasının səbəbi məlum olub Bununla bağlı britaniyalı terapevt Sermed Mejer "Daily Mirror" nəşrinə müsahibəsində danışıb. Mejerin sözlərinə görə, daha çox uşaqlar və yeniyetmələr gözlərinin qarşısında qəribə naxışlar və ya ləkələr görürlər.**

O, bu parlaq parıltıların yaranmasının səbəbini açıqlayıb. Mejer bildirib ki, insanların 75 faizi heç olmasa həyatlarında bir dəfə də olsa, gözlərini yumduqda bu parıltıları görüblər. Onun sözlərinə görə, bir qayda olaraq, bu, təhlükəli deyil, lakin bu parıltıların yaranma səbəbi ilə bağlı bir neçə fərziyyə var.

"Birincisi, birbaşa mexaniki simulyasiyadır. Yəni göz qapaqlarının sürtünməsi və ya onlara təzyiq nəticəsində torlu qişanın daxilində işığa reaksiya verən hüceyrələrin simulyasiyası baş verir. Bu yolla biz müxtəlif rənglər və formalar görürük", - deyə Mejer qeyd edib.

Bundan əlavə, foton şüalanması və ya maqnit sahələrinə məruz qalma nəticəsində gözlər qarşısında qəribə rəngli formalar meydana gələ bilər. Terapevtin sözlərinə görə, bu cür rəng parıltıları adətən uşaqlar və yeniyetmələr tərəfindən görülür, böyüklərdə nadir hallarda rastlanır.

## Həftədə nə qədər yumurta yemək olar?



**Sağlamlığınıza zərər vermədən həftədə nə qədər yumurta yeyə biləcəyiniz ortaya çıxıb.**

Bu barədə ABŞ-dan olan kardioloqlar danışıblar. Alimlər bir sıra araşdırmalara və qidalanma təcrübələrinə, eləcə də məlumatların təhlilinə əsaslanaraq yumurtanın yağsız protein və mühüm mikroelementlər, fosfor, selen, həmçinin A, B2, B5, B12 vitaminlərinin yaxşı mənbəyi olduğunu təsdiqləyiblər. Yumurtaların tərkibi istehsal və hazırlanma üsulundan asılı olaraq dəyişə bilsə də, alimlər həftədə 12 yumurta yeməyin məqbul olduğu qənaətinə gəliblər. Bu miqdar xolesterol səviyyəsinə ciddi təsir etməyəcək və sağlamlığa zərərli təsir göstərə bilməz.

Bununla belə, bu məhsulları istehlak etməzdən əvvəl yenə də həkiminizlə məsləhətləşmək məsləhət görülür.

## Amerikada stadionun oturacaqları unitazlarla əvəzləndi



**ABŞ-ın "Kapitan Leyk Kaunti" beysbol klubunun stadionunun tribunalarında tamaşaçı oturacaqları əvəzinə səkkiz unitaz quraşdırılıb. VİP yerlərə biletlər artıq satışdadır. Tualet cərgəsindən bir oturacaq üçün biletin qiyməti 18 dollardır. Unitazların arxası qəzet və jurnallar üçün xüsusi qabla təchiz olunub.**

## Nə qədər ömrümüzün qaldığı gözümüzdən müəyyən ediləcək

**Nə qədər ömrünüzün qaldığını bilmək istərdinizmi? Medicina.az xəbər verir ki, "British Journal of Ophthalmology" jurnalında dərc edilən bir araşdırma gözlərin ömür müddəti ilə bağlı bir çox ipucu daşıdığını göstərir.**

Beynəlxalq tədqiqatçılar qrupunun fikrincə, insanın gözündəki torlu qişanın bioloji yaşı ilə ölüm riski arasında əlaqə var. 47 000 yetkin insanın iştirakı ilə aparılan araşdırmaya görə, torlu qişada bioloji saatla bağlı mühüm məlumatlar yer alır.

Gözün arxasında yer alan və vizual məlumatları qeyd edən, işığa həssas milyonlarla hüceyrədən ibarət olan torlu qişa insanın nə qədər ömrü qaldığını göstərə bilər. Belə ki, torlu qişası bioloji yaşından daha yaşlı olan fərdlərin növbəti 10 il ərzində ölmə ehtimalı daha yüksəkdir.

Bu araşdırmanın Alzheimer kimi xəstəliklər üçün xəbərdarlıq sistemi olaraq istifadə edilə biləcəyi deyilir.

Tədqiqatçılar 11 il ərzində 40-69 yaş arası iştirakçıları təhlil ediblər. Araşdırmada hər kəsin gözünün arxa səthi skan edilib. Eyni zamanda məlumat bazasında yarım milyon iştirakçının genetik və sağlamlıq məlumatları qeydə alınıb. Tədqiqat qrupu torlu qişanın yaşının bir çox insanda fərqli olduğunu aşkar edib. Bundan sonra insanın bioloji yaşı ilə xronoloji yaşı, həmçinin torlu qişasının yaşı müqayisə edilib.

Bu fərqlər ürək xəstəliyi və ya xərçəng riskindən başqa, müxtəlif ölüm riskləri ilə əlaqələndirilir. Alimlər yüksək qan təzyiqi, bədən kütlə indeksi, həyat tərzi fərqləri və etnik mənsubiyyət kimi faktorları nəzərə alıblar.

Elm adamları torlu qişadakı səbəbli və ya səbəbsiz yaş artımının hər il üçün ölüm riskini 2% artdığını müşahidə ediblər. Tədqiqatçıların fikrincə, xəstəlik və ölüm riski yaşa görə inkişaf edərkən, eyni yaşda olan insanlarda da torlu qişanın transformasiyası dəyişir.

Tədqiqatın müəllifləri insanın torlu qişasının yaşını dəqiq proqnozlaşdırmaq üçün süni intellektdən istifadə ediblər. Üç ildən çox bir müddətdə təxmin edilən retina yaşı ilə faktiki yaş arasında ümumi düzgün əlaqə müşahidə edilib.

Nəticələrə görə, torlu qişası həqiqi yaşından daha qoca olan şəxslər "sürətlə qocalma" kateqoriyasına daxil ediliblər. Bu qrup adətən 3 ildən çox retina yaş fərqinə malikdir.

Ümumilikdə, tədqiqatın 28%-də beş illik, 4,5%-də isə 10 ildən çox retinal fərq olub.

Tədqiqatçılar torlu qişanın yaş fərqi ilə ölüm riski arasında davamlı güclü əlaqə olduğunu sübuta yetiriblər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500